# SONA XƏYAL

# HALAL ŞÖHRƏT



*Hacı İntiqamın evində keçirilən "Azərbaycanın dünya şöhrətli qadınları" adlı məclisdən*

BAKI 2011

**Kitab Hacı İntiqamın yubileyinə ithaf olunur**

REDAKTOR:
Azadə Musayeva
filologiya üzrə elmlər doktoru

ÖN SÖZ MÜƏLLİFİ:
Mehri Məmmədova
filologiya üzrə fəlsəfə doktoru

Sona XƏYAL. HALAL ŞÖHRƏT.
Bakı-"MBM"-2011. 88 səh.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin "İRS" komissiyasının sədri Sona Xəyalın 60-dan artıq təlif və tərtib kitabı nəşr olunub. Növbəti kitabında oxucular Şüvəlanda Hacı İntiqamın evində keçirilmiş məclislər, xüsusən də "Azərbaycanın dünya şöhrətli qadınları" adlı məclis ilə tanış olacaqlar. Kitab 1999-cu ildə qələmə alınıb.

ISBN 978-9952-29-012-4

© S.Xəyal
Bakı "MBM"



# XATİRƏYƏ DÖNƏN ANLAR

Tarixə nəzər salsaq, öz namusu, iffəti, şücaəti və başqa insani keyfiyyətləri ilə adlarını tariximizin qızıl səhifələrinə böyük hərflərlə yazan azərbaycanlı qadınlar az olmamışdır.

Tariximizdə özünə şərəfli yer tutan bu qadınların ürəyində bir VƏTƏN nəğməsi yaşamışdır. Biri bu nəğməni zildən, digəri bəmdən oxumuşdur. Bu qadınların hər birinin qəlbində məmləkətinnin, vətəninin xəritəsi çəkilmişdir. Körpəsinin beşiyi başında çaldığı laylaları da vətən deyib bizim anaların. Elə vətəninə, torpağına, xalqına can yanğısı ilə xidmət edən, millətinin dayağı, məmləkətinə vurğun, dünya şöhrətli liderimiz Heydər Əlirza oğlunu bizə bəxş edən İzzət ana kimi.

İzzət ana öz isməti, xeyirxahlığı, zəhmətkeşliyi ilə xatirələrdə yaşayan, varlığı ilə biz analara örnək olan bir Azərbaycan qızıdır. Onun nurlu çöhrəsində biz səma kimi təmiz, ləkəsiz bir insanı görürük. 1941-45-ci illərin ağır günlərində övladlarının təlim-tərbiyəsi ilə məşğul olan İzzət ana haqqında onun qız övladı Şəfiqə xanımın "Mənim anam" memuarındakı xatirələrini oxuduqca, oxuyursan. Heyranlığını ifadə etməkdə acizliyini duyursan.

İzzət ananın istəkli gəlini Zərifə xanım da elə bu qadınlar sırasındandır. İzzət ana Azərbaycana Heydər Əliyevi bəxş etmişsə, onun ocağının gəlini də bu yolla getmiş, vətəninə İlham Heydər oğlunu bəxş etmişdir.

Sona xanım Xəyalın qələmə aldığı çox maraqlı, tarixi bir əsəri–Şüvəlanda Hacı İntiqamın evində keçirilən məclisi işıqlandıran "Halal şöhrət" adlı kitabı qarşımdadır. İnsanlara,

insanlığa yüksək ehtiram və məhəbbətlə yanaşan, zahirən sakit təbiətli, daxilində isə odlu vulkanlar püskürən bu gözəl xanımın zehnindən qələminə süzülüb gələn fikirləri necə də möhtəşəmdir?! Adətən tarix yazan alimlər əsasən tarixi hadisələri qələmə alır, bu hadisələri törədən səbəblər haqqında izahlar verirlər. Sona Xəyalın, haqqında danışdığımız bu kitabı, mən deyərdim ki, bu memuarı isə XX yüzilliyin ədəbi məclisləri, onların iştirakçıları, təşkilatçıları ilə yanaşı, dövrün tanınmış qadınları haqqındakı məlumatları həm tarixi, həm də poetik bir dillə oxuculara çatdıran oxunaqlı bir əsərdir.

Azərbaycanın dünya şöhrətli qadınlarını bir yerə toplayıb məclis quran, eyni zamanda dünyasını dəyişmiş alim, sənətkar qadınlarımızı yad edən insanlara əhsən deyir, bu şərəfli işdə onlara ulu Tanrıdan uğurlar diləyirəm.

Sona Xəyal əsərinin əvvəlində dünya və yaranış haqqında çox incə, lakin insan ağlını səcdəyə gətirən məqamlara toxunur, "Ölümlü-itimli dünyamızın hansı çalarındasa sevinc zərrələrinə bürünmüş toy-büsatı var bu dünyamızın" deyən müəllif bu əsərində dünyasını dəyişən insanları–alim qadınlarımızı yad edir, onların haqqında maraqlı söhbətləri, məlumatları bizə çatdırır, vətəni Azərbaycanın keçmişini, indisini, gələcəyini ürəkdolusu bir məhəbbətlə vəsf edir, vətənin yetişdirdiyi insanların xeyirxahlığından, ədəbiyyata, incəsənətə olan həvəs və məhəbbətlərindən geniş qəlbi ilə söhbət açır.

Qadınlar bayramı münasibətilə 1999-ci il martın 10-da Şüvəlan qəsəbəsində Hacı İntiqamın evində təşkil edilən məclisin ssenari müəllifi və aparıcısı olan Sona Xəyal bu kitabda yığıncağın təsvirini bütün təfərrüatı ilə vermişdir. İlk olaraq dünya malında gözü olmayan, geniş ürəkli, qonaqsevər bir türk oğlu–Hacı İntiqam Ağahacı oğlu Atayev haqqında və onun dünyaya gəldiyi Qala kəndi ilə bağlı məlumatları oxuculara çatdıran müəllif, kitabda dünyasını vaxtsız dəyişmiş füzuli-





şünas alim Hacı Mailin də adını çəkir, onu yüksək ehtiramla yad edir. Hər iki şəxsiyyətin təşkil etdikləri ədəbi məclislərin tərifini verir.

Hacı İntiqamın məclisinə dəvət olunanlar sırasında dövrünün tanınmış ədəbiyyatşünas alimi, xalq yazıçısı Əzizə xanım Cəfərzadə, şərqşünas alim, şair Hökümə Bülluri, xalq şairi Mirvarid Dilbazi kimi tanınmış ziyalı qadınlarımızla görüşünü böyük hörmətlə qələmə alan müəllif, 1999-cu ilin martında keçirilən "Azərbaycanın dünya şöhrətli qadınları" adlı məclis haqqında daha ətraflı məlumat verir. O məclisə dəvət olunan qadınlardan danışmaqla bərabər, oxucuları məclisdə iştirak edən kişi şairlər ilə də, o cümlədən Buzovnada elmi-ədəbi məclislər keçirən Hacı Soltanla tanış edir.

Sona Xəyalın qələmə aldığı bu məclisi "Məclisi-üns" adlandırsaq, yanılmarıq. Burada şeirlər oxunmuş, əhvalatlar və xatirələr söylənilmiş, dünyadan köçənlər yad edilmiş, qalanlara uğurlar dilənilmişdir.

Burada xalqının dəyərli övladları olub-keçənlərdən, Zərifəli-Zərifəsiz, Püstəli-Püstəsiz, Umnisəli-Umnisəsiz günlərdən söhbət açmış, onlarla elm adamlarından çox maraqlı, deyərdim ki, ilk dəfə yazıya alınan söhbətlərə rəvac verilmişdir.

Əsəri oxuduqca Sona xanımın dəyanətinə, dözümlülüyünə, böyüklər (yaşca) qarşısındakı incə, ağıllı rəftarına, millətinə, torpağına olan məhəbbətinə səcdə edirsən. O, məclisi bir aparıcı kimi saatlarla davamlı surətdə idarə edir, heç kimi, heç nəyi unutmayır. Buradakı qadınlar–Zəhra xanım Quliyevanın (Allah ona rəhmət eləsin, böyük insan idi, çox təmkinli, cəsarətli təşkilatçı, yüksək elmli həkim, gözəl insan idi) tanınmış oftalmoloq, akademik Zərifə Əziz qızı Əliyevadan, onun ata və anasından, ailədə, ictimai-siyasi həyatdakı fəaliyyətindən söylədikləri xatirələri maraqla dinləmiş və onları qələmə alıb, bugünkü və gələcək nəsillərə çatdırmağa səy göstərmişdir.

Bu məclisdə çoxlu sayda qadınlarımız haqqında söhbət getmişdir ki, bu kiçik yazımızda heç olmasa onların adlarını qeyd etmək yerində olardı: Məşədixanım Nemətova (şərqşünas alim, AMEA-nın müxbir üzvü), Püstəxanım Əzizbəyova (tarixçi alim, akademik), Nəcibə Məlikova (Azərbaycanın incəsənət xadimi, aktrisa), Məsumə Məlikova(Azərbaycanın ilk hüquq elmləri doktoru) və s.

Azərbaycanın dünyasını dəyişmiş məşhur qadınları haqqında söhbət gedən, eyni zamanda böyük şəxsiyyətlərin iştirak etdiyi bir məclisi aparmaq, mən deyərdim ki, hər kişinin işi deyil. Amma ulu Tanrı öz bəndələrinə can və ruh verməklə yanaşı, onlara özünəməxsus yaradıcılıq dühası da vermişdir. Yaşadığımız dünyanın təməlini Allah qoymuşsa, onu bugünkü vəziyyətə gətirib çıxaran da Allahın sevimli bəndələridir. Bu bəndələrin içərisində əsərin müəllifi olan Sona Xəyalın da öz yeri vardır. Sona Xəyal özünün gəncliyini məhz belə ictimai-ədəbi işlərə, elmi, elmi-publisistik kitablar yazıb, dərc etdirməyə sərf etmişdir. Təsadüfi deyil ki, onun qələmindən çıxan tədqiqat əsərləri, elmi-publisistik məqalələri biz oxucular tərəfindən sevilir. Onun istər elmi, istərsə digər yazılarında poetika mühüm yer tutur. Onun nəsri poeziyasından qüvvət aldığındandır ki, oxucunu yormayır. 85 səhifəlik bu kitabı oxuduqca insanda onun müəllifinə heyranlıq duyğusu artır. Düşünürsən ki, budur insanın insana, gözəlliyə olan qiyməti, budur qadının qadına olan hörmət və məhəbbəti.

Viktor Hüqo yazır ki, "həm gözəl insan olmaq, həm də işə yaramaq–böyük insan olmaq deməkdir"...Həyat o insanları xoşbəxtlik zirvəsinə yüksəldir ki, başqalarına xoşbəxtlik gətirirlər".

Bu kəlamları Sona xanımın məclisində iştirak edən dəyərli insanlarla yanaşı, elə məclisin ssenarisini yazan və onu layiqincə sona çatdıran Sona Xəyalın özünə də şamil eləmək olar. Deyirlər ki, yalnız özü təmiz, pak olan bir insan, qarşısındakılara yüksək





qiymət verə bilər, bədxislətlər heç vaxt heç kimə xoş sözlər deməz. Kitabdakı fikirlər, xoşməramlı söhbətlər məhz Sona Xəyalın könlünün dərinliyində çağlayan, qələminə axıb gələn saf bir bulağın zümzüməsi, ürəyəyatan şırıltısıdır.

Kitab qarşımdadır, oxuduqca-oxuyur, ondan əl çəkə bilmirəm. Amma gecə saat 3-dür. Səhər işə getməli və bu kiçik "Ön söz"ümü dərc ediləcək əsərə əlavə etməliyəm. Mənə qalmış olsa, bu memuara özü boyda, özü həcmdə bir ön söz söyləyərəm. Çünki, indi bu yazımda düşündüklərimin heç mində birini qələmə ala bilmədim.

Məclisdə musiqiyə də yer verilmişdir. Sona xanım yazır ki, Tərlan Mustafayevin oxuduğu dəstgahda Füzuli fəryadından xəbər tutduq, Natəvan həsrətindən təsirləndik, Hacı Mailin vətən məhəbbətindən qidalandıq.

Hacı İntiqamın evində keçirilən sözlü-nəğməli məclisi kitab şəklində nəşr etdirib gələcək nəsillərə çatdırmaq Sona Xəyalın vətəninə, onda məskunlaşmış insanlara olan məhəbbətidir. Bu məhəbbət hissini izah etmək çətindir. Bu mücərrəd anlayış deyil, hər bir insan üçün mənəvi qüvvədir. İnsanın mənəviyyatı yüksəldikcə, onda torpağına, onun dəyərli övladlarına olan sevgisi də yüksəlir. Bax, bu fikirlər, bu sözlər kitabda adları qeyd olunan məclis iştirakçıları ilə yanaşı, əsl ziyalı olan Sona xanımın da mənliyinin ifadəsidir.

Sözümü Sona xanımın məclisin başlanğıcında söylədiyi bir şeiri ilə bitirmək istəyirəm:

Tanrım yaradıb, bir güli- əhmərdi qadınlar,
Meydan oxuyan sərvə, sənubərdi qadınlar.

Min süni çıraq yandırasan tay ola bilməz,
Göylərdən alıb nuru, münəvvərdi qadınlar.

Dünyada bu gün onlara hər sahədə yer var,
Çox yerdə, çox işdə elə rəhbərdi qadınlar.

Hər rütbəni fəth eylədi dünya yaranandan,
Bircə demək olmaz ki, peyəmbərdi qadınlar.

Ən ülvi olan bir ada layiq–Anadır O!
Ən rütbəli insanlara sərvərdi qadınlar.

Tarix boyu düşmənlə girib cəngə, döyüşmüş,
Lazım gələn anda bir igid ərdi qadınlar.

Çox dürlü əməllər ki, görübdür Sona söylər:
Hər gün yanan odlarə, Səməndərdi qadınlar.







## ÜNVAN – ŞÜVƏLAN

Allah-təalanın yaratdığı Yerdən Göyə qədər olan mövcudatın, o qüdrətli, vahid varlığın hökm verdiyi qədər yaşayacaq kainatın, adına DÜNYA deyilən bəzəkli bir gözəli var. Ən qatı zülmət gecəsinin belə nəhayətində işıqlı, "Lailahəillələh" kəlməsilə açılan sübhü, möhtəşəm Günəş nuruna bələnmiş parlaq bir gündüzü var bu dünyamızın. Ölümlərlə doğulan ən qatı matəminin belə hansı çalarındasa sevinc zərrələrinə bürünmüş toy-büsatı var bu dünyamızın. Dədəm Qorqud demiş: "Gəlimli-gedimli dünya, bir ucu ölümlü dünya". Adəmdən Xatəmə 124 min peyğəmbərin Allah kəlamlarıyla zinətləndirdiyi dünya! 14 məsum paklığı ilə mənəviyyat ümmanında yuyunan, ürfan gülşənində yollara bölünən dünya! Əql ilə eşqin vəhdətində puç olan, yox olan və öz varlığını sübuta yetirmək üçün başqa donda, başqa biçimdə yenidən doğulan dünya! "Eşqi məhəbbətdən, məhəbbəti əqldən, əqli fikirdən, fikri imandan, imanı iqrardan, iqrarı mərifətdən, mərifəti tövhiddən hasil edən" mənəviyyatın aşkar olduğu, özünü bütün varlığı ilə göstərmək üçün möhtac olduğu dünya!

Və bu dünyada adına ANA VƏTƏN dediyimiz, haçansa böyük TURAN torpağı kimi dünyaya meydan oxuyan, get-gedə parçalanan, paylanan və nəhayət bu gün Azərbaycan kimi yenidən, fəqət başqa bir yönümdə dünyaya səs salan bir yer var. Parçalana-parçalana, paylana-paylana cismən kiçildikcə, yana-yana odunu qığılcım-qığılcım kürreyi-ərzə səpələdikcə mənən böyüyən, saflaşan, ümman kimi durulan, aydınlaşan və haçansa keçmiş böyük Turan qüdrətini, Orxon, Atilla qeyrətini

geri qaytaracağına, yenidən başqa donda, başqa biçimdə öz varlığını sübut edəcəyinə inanan AZƏRBAYCAN!

Və bu diyarda öz qədim adət-ənənəsi ilə, yeraltı sərvəti, yerüstü mənəviyyatı ilə, qəlbində Əli(ə) rəhmi olan səxavətli, xeyriyyəçi sakinləri ilə tanınan BAKI var, APŞERON var!

Və onun kiçik bir guşəsi ŞÜVƏLAN deyilən səfalı bir məkandır! Və bu məkanda HACI İNTİQAM çağrılan geniş ürəkli, qonaqpərvər bir türk oğlu yaşayır!..



Hacı İntiqam Ağahəci oğlu Atayev 1949-cu il, fevralın 23-də Bakıətrafı kəndlərdən biri olan Qalada dünyaya göz açmışdır. Uşaqlığı, gəncliyi haqqında heç bir şey bilmirəm. Haqqında beş il əvvəl ilk dəfə Hacı Maildən eşitmişəm. Şəxsən tanış olanda isə artıq İntiqam ömrünün əllinci qışını yaşayırdı...

Yaxşı yadımdadır dahi şairimiz Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar olaraq hər yerdə tədbirlər keçirilirdi. Deyilənə görə ən böyük, ən təntənəli tədbir Hacı İntiqamın Şüvəlanda öz evində keçirdiyi məclis olmuşdur.





Daha sonralar Şüvəlanda keçirilən digər məclislər haqqında xəbərlər, təriflər eşitdim. Hər dəfə Hacı İntiqam "Füzuli" ədəbi məclisinə gəlib hamını qonaq çağırırdı. Amma şəxsən çağrılmayan yerə getmək adətim olmadığı üçün bu məclislərdə iştirak eləmirdim. Amma Samət Əlizadə, Tofiq Hacıyev, Vasim Məmmədəliyev, Əzizə Cəfərzadə və başqa hörmətli alimlərin, görkəmli şair və yazıçıların, musiqiçilərin iştirak etdiyi məclislərdə olmağı, əlbəttə, çox arzulayırdım.

Bir dəfə nəşriyyatda Hacı İntiqamla şəxsən tanış oldum və danışığından başa düşdüm ki, məni çox yaxşı tanıyır, hətta tədbirlərində iştirak etmədiyimə görə məndən incimişdir də. Dedi ki, bu dəfəki yığıncaq beş Azərbaycan şairinin yaradıcılığına həsr olunmuşdur. Söz verdim ki, mütləq gələcəyəm, amma xəstə olduğumdan sözümə əməl edə bilmədim. Özümdən asılı olan işlərə cavabdehəm, mənlik olmayan işə cəhd etməyi sevmirəm, ona görə də bu qismətsizliyi də mənfiliyə yozmadım.

Növbəti il Allahın izni ilə 1998-ci il martın 10-da keçirilən tədbirdə iştirak edə bildim. Düzü məclisin ab-havasından xəbərsiz idim. Yuxarı başda xüsusi ayrılmış yerdə Əzizə Cəfərzadə, Hökümə Bülluri, Mirvarid Dilbazi və tanımadığım adamlar oturmuşdu. Keçib Əzizə xanımla görüşdüm. Hökümə xanım qolumdan çəkib məni yanında oturmağa məcbur elədi. Onunla hal-əhval tutandan sonra keçib aşağıda oturmaq istədimsə də qoymadı, dedi ki, sən getsən, mən də gedəcəyəm. Əlbəttə, mənimçün Əzizə xanımla, Hökümə xanımla bir yerdə olmaq xoş idi, amma elə böyük məclisdə yuxarı başda oturmaq bir növ cəza təsiri bağışlayırdı. Və mən məclisin sonuna kimi bu cəzanı çəkdim. Amma bir iş vardı ki, oturduğum yerdən məclis aydın görünürdü. Mən o gün çox şey gördüm, çox adamı yaxından tanıdım, çox gizli olanları özümçün açıqladım. Qəribə olan bir də o idi ki, İntiqam mənə təəccüblə baxırdı,

bəlkə də mənə aid olmayan yerə necə gəlib çıxmağım, ilk dəfə gəldiyim evdə niyə yuxarı başda oturmağım ona təkəbbürlü, özündən razı bir adamın hərəkətini xatırladırdı. Bilmirəm... Həmin məclisdən mənə o böyük insanların nurlu çöhrələrini əbədiləşdirən bir şəkil yadigar qalıb.



Növbəti görüşümüz 1999-cu ilin yanvarında oldu. On nəfər müasir şairin yaradıcılığına həsr olunmuş tədbir idi. Onların əksəriyyəti "Füzuli" ədəbi məclisinin üzvü olduğundan hamımız orada iştirak edirdik. Gözəl məclis idi. Sözlə deməkdənsə, Arif Buzovnalının həmin məclisi təsvir edən şeirindən bir bənd yerinə düşər:

Xoş qarşılayır ömrünü bu əsrdə son il,
Kaş il necə ki başlayır, olsun elə təhvil.
Biz fəxr edirik, ay hacı, bu mülk, bu mənzil
Şerə, qəzələ sönməz ocaqdır Şüvəlanda.
Hal əhli bu gün şeirə qonaqdır Şüvəlanda.

Bəli, bu, Hacı İntiqamın yenicə tikdirdiyi evində ilk məclis idi. Hacı İntiqamın qəribə bir xasiyyəti var. Yer alıb təzə ev tikdirir, özü də Qala kəndindən olduğunu göstərmək üçün





qapıda iki qala tikdirir. Bir müddət keçəndən sonra o evi satıb başqa bir yerdə təzə ev tikdirir və beləliklə, Şüvəlanda qalalı evlərin sayı artır. Hacı İntiqam doğma kəndindən uzaq düşsə də, hər dəfə yeni evin qapısında qala tikdirəndə sanki öz kəndinə üzrxahlıq edir, onu unutmadığını bildirir... Bəli, belə İntiqamdır bizim Hacı İntiqam...

Hər il Məhəmməd peyğəmbərin(s) mövludunu bayram edən Hacı İntiqam deyir ki: "Hacı Mail mənim idealımdır, mən məclis keçirməyi ondan öyrənmişəm". Bəlkə də Hacı İntiqamı mənim üçün doğmalaşdıran da elə budur. Bir dəfə ona "Mailin ünvanı vətəndir" adlı kitabımı verdim. Oxuyandan sonra görüşəndə söhbət əsasında dedi ki: "Sona, o gün Arifə deyirəm ki, Sona Hacı Mailə "ata" deyir, nə olar məni də qardaşlığa götürsün". Dedim: "Ay İntiqam, onsuz da Azərbaycanın bütün yaxşı oğulları mənə atadır, qardaşdır, xüsusiləşməyə nə ehtiyac. Hacı Mailə baxma, qızı yoxdur, mənə "qızım" deyir. Mən heç bir işdə, heç bir sözdə onun xətrini sındırmaq istəmirəm. Ondan bir dənədir"... Doğrudan da Hacı Mail təkcə mənimçün deyil, çoxları üçün bir dənədir. "Füzuli" məclisinə gələn böyük də, uşaq da hamısı onun xətrinə gəlir. Mən isə onu lap çox istəyirəm. Düzdür, mənimçün Mail müəllimin paralelində Samət Əlizadə, Bəxtiyar Məmmədzadə kimi çox sevdiyim müəllimlər var. Mail müəllim özü də bunu bilir və bundan incimir də. İntiqam deyəndə ki, "Mail mənim idealımdır", bu mənə təəccüblü gəlmədi və Hacı İntiqam bu seçiminə görə gözümdə bir qədər də yüksəldi. Beləcə, yaxşı adamların siyahısına bir ad da əlavə olundu.

Hacı İntiqamla bizi daha da yaxınlaşdıran 1999-cu ilin martında keçirdiyi "Azərbaycanın dünya şöhrətli qadınları" adlı məclisin aparıcılığını mənə tapşırması oldu. Boyun qaçırmaq istədikdə, Arif Buzovnalı dedi ki, Sona, Hacı Soltan deyib ki, bu işi Sonaya de, özü hər şeyi həll edər, burada qaçan

yerin yoxdur. Hər üçünə hörmətim var idi. Ona görə də bu işi boynuma götürdüm və bir ayın içində mən gördüm ki, Hacı İntiqam bir tədbiri keçirmək üçün nə qədər əziyyət çəkir, çalışdım ki, hər şey onun ürəyincə alınsın.

Hacı İntiqamın məclislə bağlı bir xahişi də o idi ki, dəvətnamədə adı olan qadınların hər birinə bir şeir həsr eləyim. Ömrümdə sifarişlə şeir yazmamışdım. Amma bu məclisə görə yazdıqlarıma sifariş də demirəm. Çünki, ssenarinin içində gedən şeirlər elə ssenarini yazarkən birbaşa gəlirdi. Amma ola bilsin ki, tələskənlikdən bəzi yerlərdə məzmuna görə şeirin digər dəyərlərinin qurban verildiyi məqamlar da vardır. Bunun üçün klassik şeir xiridarlarından üzr istəyirəm...

Dəvətnamədə adı olan xanımlardan üç nəfəri Əlyazmalar İnstitutunda mənimlə görüşməli idi və Şüvəlana onları mən aparmalıydım. Naibə xanım gecikdiyi üçün xeyli gözləməli olduq və Şüvəlana çatanda artıq məclis başlamışdı, Buzovnanın axundu Hacı Soltan çıxış edirdi. Bir qədər sakitləşdim ki, məclis yenicə başlayıb. Çünki, Hacı İntiqamgildə həmişə məclisə ilkin sırada xeyir-duanı Hacı Soltan verirdi.

Hacı Soltan qadınlara aid olan hədisi tamamlayıb, qadınlarımızın mədhində gözəl fikirlər söylədi, sonra isə məclisə toplaşan qadınları 8 Mart Beynəlxalq qadınlar bayramı münasibəti ilə səmimi qəlbdən təbrik etdi. Hacı Soltanın çıxışı xeyli alqışlandı...

Məclisə gecikdiyim üçün məni təqdim etməyə imkan belə vermədim və ssenari üzrə ilkin ümumi qadınlara həsr etdiyim bir qəzəl ilə çıxışıma başladım:

Tanrım yaradıb, bir güli- əhmərdi qadınlar,
Meydan oxuyan sərvə, sənubərdi qadınlar.

Min süni çıraq yandırasan tay ola bilməz,
Göylərdən alıb nuru, münəvvərdi qadınlar.





Dünyada bu gün onlara hər sahədə yer var,
Çox yerdə, çox işdə elə rəhbərdi qadınlar.

Hər rütbəni fəth eylədi dünya yaranandan,
Bircə demək olmaz ki, peyəmbərdi qadınlar.

Ən ülvi olan bir ada layiq–Anadır O!
Ən rütbəli insanlara sərvərdi qadınlar.

Tarix boyu düşmənlə girib cəngə, döyüşmüş,
Lazım gələn anda bir igid ərdi qadınlar.

Çox dürlü əməllər ki, görübdür Sona söylər:
Hər gün yanan odlarə, Səməndərdi qadınlar.

Əziz analarımız, bacılarımız, ziyalı xanımlarımız, hörmətli qonaqlar, məclis iştirakçıları! Keçən ilin martında olduğu kimi, bu il də sizi bu gözəl bayram ərəfəsində, bahar nəfəsli bir gündə, güllü-çiçəkli Şüvəlanda, saf qəlbli, geniş ürəkli, sadə bir insanın–Hacı İntiqamın evində xoş məramla salamlayırıq...

Allahın yaratdığı ən şərafətli insanın dediyi "Cənnət anaların ayağı altındadır" sözündən sadə bir vətəndaşın dediyi "Kişi çiynində qərar tutmuş dünya qadın qucağında böyüyüb" sözünə qədər dahilər anası olan qadın haqqında minlərlə fikir söylənilib, şəninə şeirlər yazılıb, nəğmələr qoşulub. Şairlərin ilham mənbəyi olan qadına, ana adına rəğbət bəsləyən qədirbilən insanlara "Xoş gəlmişsiniz" deyirik...

Bildiyiniz kimi bugünkü məclisimiz doğma Azərbaycanımızın dünya şöhrətli qadınlarına–elmdə, incəsənətdə, hərbdə göstərdikləri fəaliyyətlərilə, mən deyərdim ki, qəhrəmanlıqlarıyla Vətənin adını uzaq-uzaq ellərə yayan, ona şöhrət gətirən xanımlarımıza həsr olunmuşdur.

Azərbaycan qadını təkcə bu yaşadığımız əsrdəmi dünya şöhrəti qazanmışdır? Xeyr! Tarixən ulu nənələrimiz–Tomris

ana, Sara xatun, Məhinbanu sultan, Xeyrənnisa bəyim, Tuti Bikə, Zərrintac Tahirə, Həcər, Həbibə, Rüstəmə kimi qorxubilməz Azərbaycan qadınları, Məhsəti, Heyran, Natəvan, Fatma xanım Kəminə kimi şeirləri ilə yaddaşlara köçən şair qadınlarımız öz istedad və bacarıqları ilə Azərbaycan qadınının adını dünyaya tanıtmışlar. Belə qadınlarımız haqqında nə qədər danışsaq da sözümüz tükənməz.

Bu gün isə biz bu məclisimizdə bizimlə birgə olan gözəl xanımlarımızdan və onların əməkdə, sənətdə müəllimləri olmuş, indisə haq dünyasında olan dünya şöhrətli qadınlarımızdan söhbət açacağıq. Söhbətə başlamamışdan əvvəl gəlin dünyasını dəyişmiş xanımlarımızın ruhunu bir dəqiqəlik sükutla yad edək. (Hamı ayağa qalxır)...







## "AZƏRBAYCANIN DÜNYA ŞÖHRƏTLİ QADINLARI"

Elmin bütün sahələrində Azərbaycan qadınının izi vardır. Peyğəmbər (s) buyurmuşdur ki, iki elm var: biri fiqh, biri təbabət!.. Tibb sahəsində Azərbaycanın çoxlu alim qadınları yetişmişdir: Sara Nəzərli, Gülzar İmaməliyeva, Nəsibə Hüseynova, Məryəm Mahmudbəyova, Fəridə Əfəndiyeva, Solmaz İsrafilbəyli, Məhbubə Mahmudbəyova, Sona Axundova, Zəhra Salayeva, Sonaxanım Vəlixan, Turan Mehdiyeva və b. Əlbəttə, bu siyahını uzatmaq da olar. Bizim qadınlar həkimlik sənətini təsadüfi seçməmişlər. Dünya daim qadın şəfqətinə möhtacdır. Bu gün haqqında söhbət açacağımız qadınların sırasına dörd nəfər tibb işçisi yazmağımız da təsadüfi deyildir. Bir qədər dar ixtisaslaşmaya keçsək, ən gözəl qadın mütəxəssislərimiz oftalmologiya sahəsində nailiyyət qazanmışlar.

### *ZƏRİFƏ ƏLİYEVA*

Söhbətimizə savadlı alim, gözəl oftalmoloq, yaddaşlarda səmimi, şəfqətli bir insan kimi qalan akademik Zərifə Əliyevadan başlamaq istəyirik:

Naxçıvan torpağının bir gülruxsarı Zərifə.
Sözü dünya tutanın bir yox olan varı Zərifə.

Elminin, sənətinin şöhrəti dillərdə gəzir,
Yad edər daima xalq əhdilə ilqarı, Zərifə.

Nura həsrətlilərin zülmət ara nur payı var,
Sən də açdın əməlinlə belə əsrarı, Zərifə.

Qapını ümmid ilə açdı ümüdsüz kəslər,
Neçə nursuz gözə bəxş etdin ənvarı, Zərifə.

Tanrının bəxşişi idi bu elm, bu şəfqət,
Çevirib gündüzə sən yox elədin tarı, Zərifə.

Tarixin hardasa təkrar olunur dövranı,
Amma bir də eləməz sən kimi təkrarı, Zərifə.

Sona söylər, yığışıb ruhunu şad etmək üçün,
Gəl özün eylə qəbul bir belə zəvvarı, Zərifə.

Bəli, qəlblərdə bu cür yaşayan Zərifə Əziz qızı Əliyeva gözəl bir yaz günündə, 1923-cü il, aprelin 28-də Naxçıvanın Şahtaxtlı kəndində, hamının gözəl bir insan, dərin biliyə malik alim kimi tanıdığı Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır.

***Haşiyə:*** Nədənsə, mənə həkimlər haqqında söz demək o qədər də çətin gəlmir. On yeddi il tibb işçisi olmuşam. İşlədiyim 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında nələrin şahidi olmuşam, kimləri görmüşəm, nələr eşitmişəm... Nədənsə məndə həmişə belə bir qənaət olub ki, insanların sənətləri, peşələri göydə seçilir. Həkim kim ola bilər, onu Allah-təala özü bilir. Hər hansı bir həkimdən pis hərəkət, pis münasibət görəndə, günlərlə düşünürdüm ki, görəsən səhv düşən nədir?... Mənə həmişə elə gəlib ki, həkim olan şəxs pis ola bilməz. Allah bu şəfqəti yalnız həkimlərə vermişdir. Sonralar Əlyazmalar İnstitunda işləyəndə Dərviş Nidainin "Mənafeünnas" əsərini dissertasiya mövzusu götürdüm və əsəri müasir əlifbaya transliterasiya edəndə orada Nidainin belə bir fikrinə rast gəldim: "Həq-təala bu elmin (təbabətin–S.X.) əsrarını hükəmayə bildirmişdir. Pəs hükəma dəxi həq-təalanun xəzinədarlarıdır. Bunlar xeyrənnasdır..."

Müəllifin sözlərində doğrudan da böyük həqiqət vardır. Nə qədər məğrur adam olursansa ol, həkimsənsə, xəstənin qarşısında dəyişməyə məcbursan, onun nazıyla oynamalısan, ona hər şeydə güzəşt getməlisən. Ona görə də bu vəziyyət istər-istəməz həkimlərin təbiətini dəyişir. Onlar istəsələr də pis adam





ola bilməzlər. Ağ xalatda nə sehr varsa, əyninə geyən kimi başqalaşırsan.

Xəstəxanadan çıxdığım üç ilə yaxındır. İş yerimi dəyişsəm də bəzi işçilərlə əlaqəmi üzmürəm. Vaxtaşırı onlarla görüşürəm. Ən çox yaxın olduğum həkimlərsə pediatr T.Mirəliyeva və terapevt Z.Nəbiyevadır. Belə bir məclisin keçiriləcəyini biləndə onları da dəvət etmək qərarına gəldim. Zemfira xanımla söhbətimiz yaxşı alındı, ondan bilmədiyim şeyləri öyrəndim. Dəvətnaməni açan kimi ilk sözü Zərifə xanım haqqında oldu. Xeyli danışandan sonra söhbəti Əziz Əliyevin üstünə gətirdi və dedi: "Zərifə xanım Əziz Əliyev kimi şəxsiyyətin qızıdır. Əziz Əliyev gözəl insan idi. O qədər səmimi, xeyirxah idi ki, adam ondan çəkinmirdi. Yadlarla da doğma adam kimi danışırdı. Şəhərdə biz onunla qonşu idik. Bizim qohum isə onun sürücüsü idi. Bir dəfə xəstələnmişdi. Səhər qalxa bilmirdi. Bir də gördük ki, səsləyir. Biləndə ki, yatır, dedi: "Eybi yox, qoy yatsın, özüm gedərəm". Nə əsəbiləşmək, nə artıq bir söz demək, deyinmək, heç bir şey. Əksinə, daha da narahat oldu ki, bu niyə xəstələnib və onun qayğısına qaldı. Əsl insan idi..." Zemfira xanım çox sözlər dedi, Əziz Əliyevin portretini cızdı. Düzü, Zərifə xanım haqqında məlumatım çox idi, amma Əziz Əliyev haqqında eşitdiklərim mənim üçün yeni və maraqlı idi.

Bəli, Zərifə xanım belə bir insanın, belə atanın yolunu seçdi və layiqli davamçı oldu. 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunu bitirib, 1959-cu ildə namizədlik, 1976-cı ildə doktorluq dissertasiyası müdafiə edib, 1979-cu ildə professor adı aldı. O əvvəllər Elmlər Akademiyası Oftalmologiya İnstitutunda, sonralar Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda müxtəlif vəzifələrdə çalışaraq, oftalmologiyanın əsas problemlərinə aid bir çox əsərlər yazdı. 1979-cu ildə Oftalmoloqların Ümumittifaq Elmi Cəmiyyəti İdarə Heyətinin və Sülhü Müdafiə Komitəsinin üzvü seçildi. Akademik M.İ.Averbax adına mükafata layiq görüldü...

Əlbəttə, Zərifə xanım haqqında çox söz danışa bilərdim,

amına vaxtı nəzərə alıb bildiklərimin çox az bir qismini məclisə çatdırdım və üzümü məclis iştirakçılarına tutdum. Danışmaq istəyən çox idi, lakin əvvəlcədən də bilirdim ki, Zərifə xanımın ən yaxın rəfiqəsi Zəhra xanım olub, mənə demişdilər ki, o daha ətraflı danışa bilər. Zəhra xanıma ünvanladığım qəzəllə onu çıxışa dəvət elədim:

Növbəhar oldu, gərək bağçaya ehya gəlsin,
Eşqin izharı üçün bülbüli-şeyda gəlsin.

Qorusaq eşqini Məcnunun əgər aləmdə,
Gündə dünyayə gərəkdir neçə Leyla gəlsin.

Çapıla dağ, salına yol, çəkilə arx bu gün,
Yenə lazımdı Şirin tək güli-rəna gəlsin.

İmtəhan etmək üçün Azəri Yusiflərini,
Eybi yoxdur, arabir misli-Züleyxa gəlsin.

Qoy hünərlə yaşaya Azəribaycanın izi,
Elm ilə tarixinə bir yeni inşa gəlsin.

Belə məclis qurula qoy Qarabağda bir gün,
Azəri qızlarını təbrikə dünya gəlsin.

Sona bilmirdi kimə söz verə ilkin sırada,
Dedilər söz deməyə məclisə Zəhra gəlsin.

Zəhra xanım adəti üzrə çıxışına özünəməxsus tərzdə başladı və ahəstə-ahəstə danışdı: "Əziz və hörmətli xanımlar, hörmətli cənablar! Əvvəla mənə icazə verin, bizi bu günlər qadınların bayramını qeyd etmək üçün bura dəvət edən Hacı İntiqama öz təşəkkürümü bildirim ki, bu yerə məni də layiq bilib dəvət etmişdir. Onun əməllərinə hamımız bələdik. Onun ürək genişliyini, onun saflığını, onun necə böyük bir insan olduğunu hamımız bilirik. Bax, bu da onun ürək genişliyindən, xalqına sevgisindəndir ki, qadınları məclisə toplayıb, onların bayramını qeyd edir. Buna görə də Hacı İntiqamın qarşısında, əməlləri





qarşısında baş əyirik, ona "Çox sağ ol" deyirik və təşəkkürümüzü bildiririk.

Bugünkü gün onunla əlamətdardır ki, biz hal-hazırda yaşayan qadınlarımızla birlikdə doğrudan da bizim tariximizi təşkil edən qadınları, alimləri yad edirik. Bu alimlərin içərisində burda qeyd edildiyi kimi həkimlər də vardır. Həkimlər dörd nəfərdir, içərisində üçü oftalmoloqdur. Mən də göz həkimiyəm. Bilirsiniz, həqiqətən də Azərbaycanda oftalmologiya təbabətin digər sahələrinə nisbətən çox inkişaf etmişdir. Nəinki keçmişdə, elə indinin özündə də. Görünür özül yaxşı olmuşdur ki, indi də bu elm sürətlə inkişaf edir. Hal-hazırda bizim oftalmoloqlar dünya miqyasında tanınırlar və başqa ölkə alimləri çox şeydə onlarla hesablaşırlar. Belə alimlərimizdən biri də Zərifə xanım Əliyevadır. Mən Zərifə xanımla birgə işləmişəm, onu yaxından tanıyıram. Onun böyük qardaşı Sədulla ilə bir sinifdə oxumuşam. Ona görə də bu ailəni çox yaxşı tanıyıram, bu ailənin xüsusiyyətlərinə bələdəm. Burada qeyd olundu ki, Zərifə xanım 1923-cü ildə Naxçıvanda anadan olub, orta təhsilini Bakıda bitirəndən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

O hələ tələbəlik illərində öz təvazökarlığı və geniş dünyagörüşü ilə fərqlənir və institutu bitirəndən sonra göz həkimi olmaq fikrinə düşür. Mən qeyd etmək istəyirəm ki, Zərifə xanım adi bir ailənin övladı deyildi. Onun atası görkəmli elm xadimi, dövlət xadimi Əziz Əliyev idi. O da porofessor idi. Amma həm dövlət xadimi, həm də elm xadimi... Bu ailə çox nüfuzlu, çox saf, təmiz, insanpərvər, zəhmətkeş ailə idi. Odur ki, bu xüsusiyyətlərin, əlbəttə ki, uşaqlara, övladlara aşılanmasında ailə başçısının, Əziz müəllimin rolu çox böyükdür. Zərifə xanımın anası Leyli xanımın da əməyini, zəhmətini itirmək olmaz. Həqiqətən də Leyli xanımla bir dəfə görüşəndə, bir dəfə söhbət edəndə heyran qalırdın bu insanların insanpərvərliyinə, insanlığına. Səni necə dinləyirdilər, dərdinə necə şərik olurdular, sənə necə kömək etmək istəyirdilər. Əliyevlər ailəsi bu xü-

susiyyətlərilə fərqlənirdi. Bu kübar ailəydi. Hamıya əl uzatmağa çalışan ailə idi. Hamısına bu xüsusiyyət keçdiyi kimi, Zərifə xanım da bu ali xüsusiyyətlərə malik olan bir şəxs idi.

Zərifə xanım institutu bitirdikdən sonra göz həkimi olmaq fikrinə düşür və Moskvaya gedir. Sovet dövründə Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya kafedrasında təkmilləşir. Oftalmologiyanın müayinə üsullarını dərindən öyrənir və Bakıya qayıdaraq, Elmi-tədqiqat Oftalmologiya İnstitutunda adi ordinatordan tutmuş, baş elmi işçi vəzifəsinə qədər yüksəlir. O, xəstələri müalicə etməklə bərabər, elmi işlə də məşğul olur. Zərifə xanım da atası kimi xalqının qeydinə qalan, xalqın qədrini bilən, ölkəsinin qədrini bilən bir insan idi. O öz əməlləri ilə istəyirdi ki, xalqına kömək eləsin. Bax, onun o işləri, insanpərvərliyi, xalqsevərliyi onu məcbur etdi ki, o dövrdə yayılmış traxoma xəstəliyinin müalicəsilə məşğul olsun. O zaman Azərbaycan ərazisində yaşayanların 70-80 faizi traxoma xəstəliyinə düçar olandan sonra kor olurdu. Ona görə də bu qlobal bir problem idi. Tibb aləmində bu problem çox çətin və özünün həllini gözləyən problem idi. Ona görə də Zərifə xanım öz namizədlik dissertasiyasını traxoma xəstəliyi mövzusunda yazdı. Özü də o elə xəstəlikdir ki, müalicəsi başlanğıc dövrdə aparılarsa, korluğun qarşısı alınır, gecikdirilərsə, korluqla nəticələnir. Zərifə xanım xüsusən uşaq evlərində olan yetim uşaqları müalicə edirdi. Mən özüm şahidiyəm ki, uşaq evləri mərkəzdə deyil, şəhərin ucqar yerlərində yerləşirdi, Zərifə xanım gündə iki-üç dəfə onların yanına gedirdi. O, müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə etdi. Sonrakı elmi fəaliyyəti Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlıdır. O orada dosent, professor vəzifəsində işləmiş, institutun oftalmologiya kafedrasının müdiri olmuş və axıra kimi orada çalışmışdır. O, oftalmologiyanın bir çox məsələlərinə diqqət yetirmiş və bu haqda bir çox elmi əsərlər yazmışdır. İndi mən burada bir oftalmoloq kimi onların hamısını ayrı-ayrı demək istəmirəm, amma bir neçəsinin adını çəkməyə





məcburam. Çünki, burada oturan yoldaşlar hamısı savadlı adamlardır, ziyalı yoldaşlardır, mənə elə gəlir ki, məni başa düşərlər. Zərifə xanım br çox müayinələr aparmış, göz yaşı yollarının xəstəlikləri haqqında monoqrafiya və bir sıra məqalələr yazmışdır. Bakteriologiyanın əsasını qoyan alimlərdən biridir. Azərbaycanda bu elmin çox aktual problemləri vardır. Yəqin ki, siz də eşitmisiniz ki, son zamanlar xəstəliktörədən mikroblardan üstün viruslar meydana çıxıb. Bu yönümdə mübarizə aparmaq çox çətindir. Zərifə xanım bu sahədə də tədqiqatlar aparıb, əsərlər yazmışdır. O, 1963-cü ildən başlayaraq, "Peşə xəstəlikləri" mövzusunda doktorluq işi üzərində işləmişdir. Yenə də onun vətəndaşlıq hissi üstün olmuş, vacib problemin həllinə çalışmışdır. Siz bilirsiz ki, respublikamız neft-kimya respublikasıdır və bizdə kimya çox inkişaf etmişdir. Odur ki, müəssisələrdə çalışan şəxslərin peşə xəstəliklərinə dərindən diqqət yetirmiş, bu haqda gözəl əsərlər yaratmışdır və SSRİ Elmlər Akademiyasının akademiki M.İ.Averbax mükafatı laureatı adına layiq görülmüşdür. Zərifə xanım yeganə qadın oftalmoloqdur ki, bu ada layiq görülmüşdür. Onu da qeyd etmək istəyirəm ki, onun apardığı müalicə dünyada yeganə müalicə üsuludur. O bu xəstəliyi müayinə etmək üçün xüsusi laboratoriya yaratmışdır. Laboratoriya özü də üç hissədən ibarətdir. Birinci hissədə oftalmoloji müayinələr aparılır. İkinci hissədə dərin fizioloji tədqiqatlar aparılır. Üçüncü hissədə cərrahiyyə əməliyyatları aparılır. Bu əməliyyatlar müəssisələrdə aparılır. Birinci növbədə Məişət Kondissionerləri Zavodunda açılmış laboratoriya respublikada yeganə laboratoriya idi...

Mən sizin vaxtınızı çox almaq istəmirəm. Demək istəyirəm ki, bu bizim fəxrimizdir ki, belə yüksək, geniş dünyagörüşünə malik alimimiz olub. Zərifə xanım təkcə öz sahəsini deyil, habelə dünya ədəbiyyatını, Azərbaycan ədəbiyyatını, mədəniyyətini gözəl bilirdi. O bir insan kimi çox yüksək rütbəyə malik olan insanlardan biriydi. Ana kimi ailədə çox qayğıkeş idi, sadiq ailə üzvü idi. Biz onun rəfiqələri idik, ondan insanpərvər-

likdən, yaxşı xüsusiyyətlərdən başqa heç nə görməmişik. Onunla işləyənlər, onun tələbələri, o dövrdə Həkimləri Təkmilləşdirmə İnstitutunun başqa bölmələrinin işçiləri onun yanına gəlir, oftalmologiyanı yalnız onun rəhbərliyi altında keçirdilər. Çünki, onun oxuduğu mühazirələr yüksək səviyyədə olurdu. O, həkimlərə qarşı çox qayğıkeş idi. Çoxlu tibb elmləri namizədi, elmlər doktoru yetişdirmişdir. Gözəl bir oftalmoloji məktəb yaratmışdır. Mənə elə gəlir ki, onun həyat və fəaliyyəti bizim gələcək nəslimiz üçün örnək olmalıdır. Əsərlərində o elə incə məsələlərə toxunurdu ki, o məsələləri SSRİ miqyasında bir alim, bir akademik söyləməmişdir. Ona görə də mən bununla sözümü bitirərək demək istəyirəm ki, Zərifə xanıma Allah rəhmət eləsin və onun bütün həyat və fəaliyyəti bizim gənclər üçün örnək olsun. Diqqətinizə görə sağ olun".

Zəhra xanımın çıxışı alqışlarla qarşılandı. Dəvətnamədə ikinci sırada elə onun özü dururdu.

## *ZƏHRA QULİYEVA*

Zəhra xanımı xüsusi təqdim etməyə ehtiyac yox idi. 1923-cü il, yanvarın 18-də Bakıda anadan olmuş, 1945-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunu bitirmiş, namizədlik, doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmiş, professor vəzifəsinə kimi yüksəlmişdir. 1974-1985-ci illərdə məzunu olduğu ATİ-nin rektoru olmuş Zəhra xanımı hələ o illərdən tanıyırdıq. Tibb Universitetinin tələbələri, eləcə də məzunları həmişə ondan böyük razılıqla danışırdılar. Bir həkimin onunla bağlı danışdığı xatirə indi də yadımdadır: "...Fiziologiyadan praktika dərsimiz olanda heç kəs qurbağanı kəsmək istəməzdi. Hər dəfə praktika müəllimimiz əsəbiləşərdi. Bir gün hövsələsi tükənən müəllim dəhlizdən Zəhra xanımın səsinin gəldiyini eşidib, qapını açdı və onu auditoriyaya dəvət etdi. Zəhra xanım onun şikayətini sakitcə dinləyib heç kimin gözləmədiyi halda belə cavab verdi: "Nə olsun... xanım, yadınızdadırmı, bizim fiziologiya dərsimizdə müəllim qurbağa kəsəndə, özümüz qorxudan qapını açıb bayıra qaçmışdıq? İndi hələ yaxşıdır ki, bunlar içəridə oturub təcrübəyə baxırlar. Fikir verməyin, uşaqdılar da, öyrəşərlər..."





Zəhra xanım hal-hazırda Qadın Problemləri üzrə Dövlət Komissiyasının sədri olsa da, pedaqoji fəaliyyətini də dayandırmamışdır və yenə də Tibb Universitetinin professoru vəzifəsində çalışır...

Zəhra xanım haqqında çox söz demək olardı, lakin mən yenə də məclisə müraciət etdim və sözü Zəhra xanımın müavini Məlahət xanım Həsənovaya verdim. Məlahət xanım Qadın Problemləri üzrə Dövlət Komissiyasında çalışır. Tibb elmləri namizədidir. İkinci ixtisas kimi hüquqşünaslığı seçmişdir və bu sahədə də namizədlik dissertasiyası müdafiə etmək fikrindədir. Məlahət xanım öz çıxışına belə başladı: "Doğrudan da belə gözəl bir məclisin təşkili bir də onu göstərir ki, Azərbaycan xalqında qadına böyük hörmət, böyük məhəbbət var. Hacı Soltan çox düz dedi ki, islam aləmində qadına hörmət var. Biz qadınlara olan bu hörmət, bu məhəbbət, biz qadınları daha çox məsuliyyətli olmağa çağırır. Zəhra xanım haqqında mən nə danışa bilərəm? Zəhra xanımın elə adı çəkiləndə, "Səhra xanım" deyəndə, elə hər şey göz qabağına gəlir. Yəni, o elə bir insandır ki, elə bir alimdir, elə bir qadındır, elə bir xadimdir ki, onun haqqında bəlkə də heç danışmağa ehtiyac yoxdur. Məclislərdə, tədbirlərdə elə Qadın Problemləri Komitəsi deyəndə, Tibb Universitetinin professoru deyəndə, o saat bilinir ki, "Hə, bu o Zəhra xanımdır". Bu gün mənim üçün şərəfdir ki, mən Zəhra xanım haqqında danışıram. Bu mənə qismət olubdur. Mən oxuduğum Tibb Universitetində Zəhra xanım rektor idi. Biz onu o müddətdən görkəmli, ən layiqli, ən məsuliyyətli və tələbələrin qayğısını çəkən bir rektor kimi tanıyırdıq. Onda mən onu uzaqdan-uzağa tanıyırdım. Artıq üç ildir ki, bu qadınlar hərəkatında "Sevil" Qadınlar Məclisi yaradılmışdır və bu məclisdə bizim Zəhra xanımla çox görüşlərimiz, yaxın

əlaqələrimiz olubdur. Nə isə, Zəhra xanımı mən bir daha yaxından tanıdım. Zəhra xanımın gözəl insan olmağı haradan irəli gəlir? Ümumiyyətlə, mən Zəhra xanıma "işıqlı insan" deyərdim və Zəhra xanımda bu işıq haradandır? Zəhra xanım elə bir ailədəndir ki, bu işıq oradan ziyalanmışdır Zəhra xanımda. Zəhra xanım elə bir ailədə doğulmuşdur ki... Atası Tahir Quliyev Azərbaycanda ilk professorlardan olmuşdur. Tahir Quliyev yol mühəndisi olub. Özü də Azərbaycanın XX əsrdə xaricdə (Peterburqda) təhsil alan oğullarından biri Tahir bəy Quliyev olub. Və Zəhra xanım doğulduğu ailədə elə insanlarla ünsiyyətdə olub ki, mənim fikrimcə o başqa cürə də ola bilməzdi. O, çox xoşbəxt insandır ki, belə gözəl insanların, tarixi şəxsiyyətlərin əhatəsində böyüyüb. Tahir bəy əvvəllər Əhməd Cavad, Topçubaşov və başqa görkəmli şəxsiyyətlərlə dostluq etmişdir və Zəhra xanım belə bir mühitdə tərbiyələnmiş, maariflənmişdir. Bu adamların hər birinin adı çəkiləndə, haqqında danışılanda, Azərbaycanın ən yüksək mənəvi varlıqları, zirvələri göz önünə gəlir.

Zəhra xanım nurlu insandır. Bütün təsadüflər zərurətdən doğur və bu Qadın Problemləri Komitəsi keçən il, bir il bundan qabaq möhtərəm prezidentimizin fərmanı ilə əlaqədar olaraq yaradılmışdır. Bütün qadınlar sevindilər ki, Azərbaycan qadınının problemləri dövlət səviyəsində həll olunacaq. Görən, bu qadın komitəsinə sədr kim olacaqdır? Zəhra xanımın fərmanı verilən gün qadınların sevincinin həddi-hüdudu yox idi. Komitənin yaranmasından çox, onlar sədr vəzifəsinə Zəhra xanımın təyin olunmasına sevinirdilər. Çünki, Zəhra xanım Azərbaycan qadınları içərisində elə bir qadındır ki, bizim professor qadınlarımız, görkəmli alim qadınlarımız çoxdur, lakin Zəhra xanım elə bir qadındır ki, bütün qadınların həyatında birlik yaradır. O, qadınları o qədər sevir... Siz onun qəbuluna gəlib kənardan seyr edəsiniz, görərsiz ki, Zəhra xanım ən adi qadını bəzən saatlarla dinləyir, məsləhət verir. O qədər böyük ürəklə, o qədər məhəbbətlə dinləyib yola salır ki, adam valeh olur.





Zərurət təsadüfdən doğur. Bəlkə Zəhra xanımın adının islam aləmində ən məsum qadın sayılan Fatimeyi-Zəhranın adından götürülməsi də təsadüfi deyildir...

Zəhra xanım məndən xahiş eləmişdi ki, onun haqqında çox qısa danışım. Onun haqqında qeyd olundu ki, Zəhra xanım Tibb Universitetinin rektorlarından biri olmuş, dəfələrlə Ali Sovetin deputatı seçilmişdir, hal-hazırda respublikamızda Oftalmoloji Cəmiyyətin elmi rəhbəridir və Zəhra xanım hamının sevimlisidir... Sağ olun." (alqışlar)

## *UMNİSƏ MUSABƏYOVA*

Dünya şöhrətli həkim qadınlarımızdan biri də hamının məğrur qadın kimi tanıdığı Umnisə Süleyman qızı Musabəyovadır. 1902-ci il, oktyabrın 9-da Qəbələ şəhərində dünyaya göz açmışdır. 1936-cı ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1943-cü ildən professor kimi çalışmışdır. 1945-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun göz xəstəlikləri kafedrasına müdür təyin olunmuşdur. 1957-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 1962-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. Umnisə xanımın həm elmi, həm də ictimai həyatda böyük xidmətləri vardır. O, 1958-ci ildə Brüsseldə çağrılan Ümumdünya Oftalmoloqlar Konqresində, Afrika-Asiya göz həkimlərinin I (Qahirə-1958), II (Tunis–1960), III (İstambul–1964), IV (Beyrut–1968) konqreslərində iştirak etmişdir. Dəfələrlə SSRİ Ali Sovetinin və Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. Bir çox orden və medallarla təltif edilmişdir. 1972-ci ildə Yaponiyada keçirilən beşinci konqresdə daimi şuranın üzvü seçilmişdir. 1955-ci ildən ömrünün sonuna kimi Sovet Sülhü Müdafiə Komitəsinin, 1963-cü ildən Sovet Qadınları Komitəsinin üzvü, 1957-ci ildən ömrünün sonuna kimi Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri olmuşdur. 1974-cü ildə faciəli şəkildə dünyasını dəyişmişdir...

Umnisə xanım haqqında danışmaq şərəfli olduğu qədər də çətin idi. Əlbəttə, adi faktları sadalamaqla iş bitsəydi, nə vardı ki. Ona görə də qısa çıxışımı ona həsr elədiyim bir qəzəllə bitirdim:

Dağıtsın möhnətin, dərdin, könül meyxanə istərdi,
Həmin dərgahə ki girdi, gələ peymanə, istərdi.

Dolanıb daim elm adlı şəmin ətrafına, yalnız
Ona verməkçün öz canın ola pərvanə, istərdi.

O şəm'rüx nigarıyla olub həmdəm yaratdıqca,
Özündən sonrakı nəslə qoya dürdanə, istərdi.

Gözün nurun verib qurban nə qədri gözsüzə dərman,
Elmdə hamını hər an belə mərdanə istərdi.

Tunis, Beyrut, Xirosima, Brüssel, Qahirə, - gəzmiş,
Hər eldə ali xidmətli təbabətxanə istərdi.

Vuqarlıydı, vüqarıyla alardı zirvələrdən qar,
Hara getsə, nəcabətdən qura kaşanə, istərdi.

Sona, ölmüş, həm öldürmüş, ölümsüz varlığa dönmüş,
Min illər Umnisə adı oia əfsanə, istərdi.

Yenə də məclisə müraciət elədim. Nədənsə, heç kəs söz istəmədi, amma sonra Zəhra xanım dedi ki, desəydiniz, mən danışardım.

Sabir Gəncəlinin "Hər sətirdə bir tarix..." kitabında Umnisə xanım haqqında maraqlı məlumatlar vardır və burada qeyd eləmək yerinə düşər: "Azərbaycan, rus, ingilis dilində 20-yə yaxın qiymətli elmi əsərin: məqalənin, monoqrafiyanın müəllifi olan Umnisə xanım ümumdünya şöhrəti qazanmışdır. O, Azərbaycanın gözəl guşələrindən biri Qutqaşendə anadan olmuş, bütün mənalı həyatını, elmi, pedaqoji və ictimai fəaliyyətini Bakıda keçirmiş, 30 ilə yaxın N.Nərimanov adına ATİ-nin göz xəstəlikləri kafedrasına başçılıq etmiş, respublikada





səhiyyənin inkişafı və doğma xalqının sağlamlığı işində böyük xidmətlər göstərmişdir. Respublikamızın elmi həyatı üçün çox gərəkli olan traxoma, qlaukoma xəstəliklərinə, görmə sinirinin patologiyasına həsr edilmiş qiymətli tədqiqatları onu dünya şöhrətli alim səviyyəsinə qaldırmışdır.

Umnisə xanım haqqında alman həmkarı H.Şmidt almanca "Berlin" jurnalında yazırdı:"...Umnisə Musabəyovanın adı nəinki Sovetlər İttifaqında, hətta onun sərhədlərindən də çox-çox uzaqlarda oftalmoloqlar arasında dərin ehtiram hissilə çəkilir...".

"İngilis dilində çıxan jurnalların birində professor Musabəyova yazır: "Ağ xalatlı kişi və qadınlar hər yerdə, hamı tərəfindən hörmətlə qarşılanır, adları hər yerdə ehtiramla çəkilir". Bu, şübhəsiz ki, belədir. Özünün yüksək elmi məharəti və son dərəcə təvazökarlığı ilə fərqlənən adamları sevməmək olarmı?!

Professor Musabəyova bir diaqnozun dəqiqləşdirilməsində mənə kömək etdi. Halbuki, bunun üzərində mən Qərbi Almaniyada uzun illər, həm də əbəs yerə çalışmışdım. Umnisə xanım son dərəcədə təvazökar qadındır. Ona iki dəfə "yoldaş professor" deyə müraciət etdim və hər dəfə "mənim ki, adım var" sözlərini eşitdim. Bu səmimiliyi heç unutmaq olarmı?!" (Bakı-"Şur"-1994, səh.348-349).

## *ADİLƏ NAMAZOVA*

Əslində Umnisə xanım haqqında Adilə xanım danışmalı idi, amma xəstə olduğundan məclisimizə gələ bilməmişdi. Əlbəttə, biz buna çox təəssüf etdik. Mən Adilə xanım haqqında geniş danışmaq istədimsə də, vaxtın azlığına görə məsləhət bilmədilər. Hər halda qeydlərimi çatdırmağı lazım bildim...

Əvvələ onu deyim ki, Adilə xanımı mən özüm şəxsən məclisə dəvət etmişdim. Özü də bu dəvəti yaxşı qarşıladı. Hətta mənə qeydlər üçün özü haqqında olan braşuranı da verdi...

Mən Adilə xanımı çoxdan tanıyırdım. Vaxtilə işlədiyim xəs-

təxanada gözəl bir pediatr vardır. Təkcə Bakı-Abşeron camaatı deyil, Azərbaycanın bir çox bölgələrinin əhalisi də bəlkə onu tanıyır. Uşaq şöbəsinə gələn birinci növbədə "Doktor Mirəliyeva buradadırmı" sualını verir. Əgər o xəstəxanada olmursa, xəstə uşağı Zabrat kəndinə, onun evinə aparırlar. Adilə xanım haqqında həm ondan, həm də xəstəxanamızın keçmiş baş həkimi Kazım Kazımovdan eşitmişdim. Bir dəfə doğum şöbəsində yeni doğulmuş uşaqlardan birinin vəziyyəti pisləşir. Həkim Mirəliyeva lazım olan tədbirləri görür. Amma uşağın vəziyyətindən narahat olan ata gedib Qarayev adına xəstəxanadan Adilə xanımı gətirir. Adilə xanım gəlib Mirəliyevanın təyinatına baxıb deyir: "Çox düzgün təyinatdır, mən də elə bunları yazacaqdım. Başqa heç nə əlavə edə bilmərəm". Sonra Adilə xanım K.Kazımova müraciət edib deyir ki, həkim Mirəliyevanı versin Qarayev adına xəstəxanaya, orada belə həkimlərə ehtiyac çoxdur. Kazımov deyir ki, Mirəliyeva getsə, gərək onda xəstəxananın uşaq şöbəsi bağlansın. Mirəliyeva özü isə deyir: "Neçə kəndin ümüdü mənədir, mən şəhərə gedə bilmərəm. Orada yenə Adilə Namazova var, bəs burdakılar neyləsin, bura savadlı həkim daha çox lazımdır". Həkim Mirəliyeva indiyə kimi Maştağada həmin xəstəxanada işləyir...

Adilə xanım haqqında bildiklərim bu qədər idi. Amma onun şəxsiyyəti və ömür yolunu işıqlandıran "Azərbaycanın görkəmli elm və təbabət xadimləri" seriyasından olan "Akademik Adilə Namazova" adlı braşuranı oxuyarkən çox sevindim, içimdən bir qürur hissi keçdi. Digər tərəfdən isə məni fikir götürdü ki, Adilə xanımın bu qədər fəaliyyətini kiçik bir çıxışa necə yerləşdirəcəyəm. Nəyi yazım, nəyi yox? Nəhayət, bu fikrə gəldim ki, onun fəaliyyət dairəsini əhatə edə bilməyəcəyəm, ona görə də konkret faktları seçdim...

Adilə Əvəz qızı Namazova 1926-cı ilin sentyabrında Qarabağın Ağdam rayonunun Seyidli kəndində anadan olub. 1949-cu ildə Azərbaycan Tibb İnstitutunu bitirib, Ağdamda Uşaq Məsləhətxanasına müdür vəzifəsinə təyin olunub. 1952-ci ildə





Səhiyyə naziri Ağdamda olarkən işini bəyənib və ona Bakıya köçüb ordinator işləməyi təklif edib. Moskvada aspiranturaya daxil olan Adilə xanım əvvəlcə namizədlik, daha sonra doktorluq dissertasiyası müdafiə edir və pediatriya üzrə ilk tibb elmləri doktoru olur. Bakıya qayıdıb Tibb İnstitutunda uşaq xəstəlikləri kafedrasında müdür vəzivəsində çalışır. Adilə xanımın titullarını saysaq, uzun bir siyahı alınar. Onlardan bir neçəsini qeyd edirik: Akademik, Əməkdar Elm xadimi, Dövlət Mükafatı laureatı, Səhiyyə əlaçısı, Azərbaycan Prezidenti yanında Dövlət Ali Attestassiya komissiyasının Rəyasət Heyətinin üzvü, Azərbaycan Səhiyyə nazirliyində Uşaq Həkimləri Cəmiyyətinin sədri, Türkdilli və Mərkəzi Asiya ölkələri pediatrları Cəmiyyətinin vitse prezidenti və s...

Tərtibçi kitabçanın sonunda Adilə xanıma uzun ömür, cansağlığı və bir də onun doğma torpağı olan Qarabağın işğalçılardan tezliklə azad olmasını arzulayır. Biz də hamılıqla bu arzulara qoşuluruq:

Çox olub dövran ara xoş baharı Adilənin,
Məskəniydi Qarabağ laləzarı Adilənin.

Körpə ikən dolaşıb hər qarışın gəzmişdir,
İndi isə ora düşmür güzarı Adilənin.

Bakını sevsə, ocaq çatsa da bir mənzildə,
Var ürəkdə Qarabağ tək nigarı Adilənin.

Nə qədər əcnəbi ölkə gəzə, şöhrət qazana,
Sağala bilməyəcəkdir azarı Adilənin.

Hansı yurda gər ayaq bassa Azərbaycanda,
Hər elatda tapılar bir asarı Adilənin.

Ola təhlükədə bir körpə həyatı bir an,
Etməsə çarəsin, olmaz qərarı Adilənin.

Sona, Allah yetirə arzusuna millətimi,
Alına düşmən əlindən diyarı Adilənin.

* * *

Gəlməyən alim xanımlar haqqında danışılsın, ya yox? Biz bu "problem"i həll edərkən, xəbər gəldi ki, Zəki İslam söz istəyir. Kərəm Kürqıraxlı mikrofonu götürüb "Şeirim" şeirilə onu salamladı:

Deyirəm sultanım, xanımdı şerim,
O mənim ruhuma hakim kəsilmiş.
Hər ötən dəqiqəm, anımdı şerim.
Şerimlə başlamış sözüm, söhbətim.
İliyim, damarım, sümüyüm, ətim,
Ürəyimdən axan qanımdı şerim.
Şamlara pərvanə yaranmış Kərəm,
Nadanlar əlində qalmış bir zərəm.
O məni unutsa, zərgər gəzərəm,
Düşünən beynimlə canımdı şerim.

Elə bu şeirilə necə şair olduğunu sübut edən Kərəm Kürqıraxlı nəsrə keçdi və təntənəli təqdimatla Zəki İslamın, dostu Hacı İntiqamın 50 illik yubileyi münasibəti ilə "Xüsusi buraxılış" nəşr etdirdiyini bildirdi. Həmin buraxılışda Hacı Soltanın, Zəki İslamın, Həkim Qəninin, Arif Buzovnalının, Yavər Şüvəlaninin və bir məktəblinin Hacı İntiqama həsr etdikləri şeirlər vardır ki, onlardan birini oxuculara təqdim edirik:

Əhsən sənə, gör bir necə dünyanı yaşatdın.
Zəhmətlə, hünərlə şərəfi, şanı yaşatdın.

Dərya kimi qəlbin yenidən cuşə gəlibdir,
Həm yerləri, həm göyləri, dörd yanı yaşatdın.

Göylərdə əgər cümlə mələklər sənə heyran,
Cənnətdə də həm huriyi-qılmanı yaşatdın.

Həm orduya getdin, olasan xəlqinə arxa,
Həm arxada hər xəstəni, nalanı yaşatdın.





Məclisləri, yubileyləri bir məqsədə qurdun,
İnsanlığa qiymət verib, insanı yaşatdın.

Bilmərrə, özün də yaşayırsan yaşadanda,
Sən dahilər ilə Hacı Soltanı yaşatdın.

Buraxılışda Hacı Soltanın, Zəki İslamın, professor Zəhra Quliyevanın, professor Elşad Abdullayevin, Leyla Gərayzadənin, İradə Əliyevanın, Gülnigar Rəhimlinin, Solmaz Kosayevanın, Kərəm Kürqıraxlının, Arif Buzovnalının, Şahməmməd Dağlaroğlunun ürək sözləri, habelə "Ədəbiyyat qəzeti", "Respublika", və "Şəhriyar" qəzetlərində Hacı İntiqam haqqında gedən yazılardan parçalar və Hacı İntiqamın aldığı fəxri diplomların əksləri verilmişdir. Buraxılışı məclis iştirakçılarına hədiyyə etdilər.

Zəki İslam Hacı İntiqamla dostluğundan, onun gördüyü xeyriyyə işlərindən xeyli danışdı və özünün bir neçə şeirini söylədi. Həmin şeirlərdən birini oxucuların diqqətinə çatdırırıq:

Mə ağlım kəsəndən, gözüm görəndən
"Allahü Mühəmməd, Əli" demişəm.
On iki imama, həzrət Abbasa,
Üz tutub Xudaya, "bəli" demişəm.

Ustadlar ustadı ustad pirinə,
Allahın sağ əli Merac pirinə.
Göydə bölünənin yerdə yerinə,
Düz tutan Əliyə "vəli" demişəm.

Fatimeyi-Zəhraya qurban canım,
Heydəri-Kərrarım, Şahi-mərdanım,
Mən Zəki İslamam, şöhrətim, şanım
Əzəldən Əlidir, Əli, - demişəm!

* * *

Elmin humanitar sahələrində də Azərbaycan qadınları gözəl nailiyyətlər əldə etmişlər. Tarix, fəlsəfə, hüquq elmləri üzrə qadınlarımız içərisində bacarıqlı, savadlı mütəxəssislər yetişmişdir: Sara xanım Aşurbəyli, Şövkət Tağıyeva, Səidə İmanzadə, Püstəxanım Əzizbəyova, Məşədixanım Nemətova, Şükufə Mirzəyeva, Məsumə Məlikova və başqaları daim ictimaiyyət tərəfindən sevilmiş, alqışlanmışdır.

## *PÜSTƏXANIM ƏZİZBƏYOVA*

Püstəxanım Əzizağa qızı Əzizbəyova 1929-cu il, dekabrın 23-də Bakıda dünyaya göz açmışdır. 1961-ci ildə tarix elmləri doktoru alimlik dərəcəsi, 1962-ci ildə professor adı almışdır. Qırx ilə yaxın bir müddətdə tarix elmi sahəsində tədqiqatlar aparmış, əlli kitabın, üç yüzdən çox məqalənin müəllifidir.

Püstəxanım Əzizbəyova 1955-ci ilə kimi Tarix Muzeyində şöbə müdiri vəzifəsində çalışmış, ömrünün sonuna kimi həmin muzeyə rəhbərlik etmişdir. 1964-cü ildə Amerika Müzeylər Assosiasiyasının üzvü, 1968-ci ildə qadın komitəsinin üzvü seçilmiş, bundan başqa bir çox kompleks problemlər üzrə elmi şuraların üzvü olmuşdur. 1972-ci ildən Elmlər Akademiyasının müxbir üzvü olmuş, "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif edilmiş, əsərləri qızıl və gümüş medallara layiq görülmüşdür.

Püstəxanım Əzizbəyova haqqında yazılı mənbələrdə xeyli məlumat vardır. Lakin mən qısa qeydlərimlə kifayətlənib məclisə müraciət etdim və söz istəyən Tarix Muzeyinin əməkdaşı Firdövsə Əhmədovaya söz verdim.

Firdövsə xanım sözünə təşəkkürlə başlayıb, Püstəxanım Əzizbəyova haqqında geniş məlumat verdi: "Dünyasını dəyişmiş, eyni zamanda hal-hazırda fəaliyyət göstərən alimlərimizin, sənət adamlarımızın, xanımlarımızın bayramını qeyd etmək üçün bu məclisi təşkil edən Hacı İntiqama ürəkdən minnətdarlığımı yetirmək istəyirəm. Bu, insanlığa, qədirbilənliyə həsr olunmuş məclisdir. Hər birimiz bir insan kimi haçansa ünsiyyətdə olduğumuz insanlar haqqında danışırıq, onların yaxşı məziyyətlərindən söz açırıq. Lakin, ümumilikdə açıq şəkildə bir-birimizin qarşısında bunu etiraf etmək hamımıza nəsib olmayan bir keyfiyyətdir ki, Hacı İntiqama həvalə olunub və o bunu layiqincə yerinə yetirir.





Püstəxanım Əzizbəyovanın şəkli mərhum akademikimiz Zərifə xanım Əliyevanın şəkli ilə yanaşı asılmışdır. Bayaq Zəhra xanım onun insani keyfiyyətlərindən danışdı. Püstəxanımın ailəsi də Zərifə xanımın ailəsi ilə yaxın olmuşdur və onun Zərifə xanım haqqında yazısı vardır ki, "İnsanlığı sevmək istedadı" adlanır. Doğrudan da insanlığı sevmək Tanrı tərəfindən verilən xüsusi istedaddır. İnsanlığı sevmək, ona əməl etmək və hər addımda o missiyanı həyata keçirmək, özü də ömrün sonuna qədər bunu bacarmaq böyük keyfiyyətdir.

Püstəxanım Əzizbəyova da nadir şəxsiyyətlərdən olubdur. Yəni, onun nadirliyi ondan ibarətdir ki... İnsan kimi biz potensial olaraq bir çox keyfiyyətlərə malikik. Lakin həmin keyfiyyətləri heç də hamımız zahirə çıxarmırıq. Nadirliyi ondan ibarətdir ki, o, ömrünün sonuna qədər daim o keyfiyyətləri, daxili potensialı həm mənəvi, həm fiziki cəhətdən səfərbər edərək yaxşı işlərə sərf etməyə çalışmışdır. Yəni, bu keyfiyyəti heç də həyatdan öc almaq, həyata qarşı getmək mövqeyində durmaq deyildi. Onun bu keyfiyyəti insanın özünü həyatda təsdiqləmək keyfiyyəti idi. İnsanın həyatda, təbiət qarşısında özünü təsdiqləmə keyfiyyəti o deməkdir ki, artıq o insan cəmiyyətdə adi şüur daşıyıcısı deyildir. O insan cəmiyyəti qabaqlayır və onun qanunauyğunluğu baxımından qabaqlaya bilir. Belə keyfiyyətlərə malik bir xanım olub Püstəxanım Əzizbəyova.

Bakı şəhərində Əzizbəyov rayonunun əhalisi Püstəxanımı daha yaxşı tanıyırlar. Püstəxanım həm də xalq içərisində olmuş şəxsiyyətdir. Yəni, özünü xalqdan kənarda tutmamışdır. Çoxlarına bəllidir ki, Püstəxanıma həyatı boyu çoxlu vəzifələr təklif

olunmuşdur. Lakin o Hacı Zeynalabdin Tağıyevin, bu məclisdə adı çox çəkilir, ona bir rəhmət oxumaq da savab iş olardı (Yerdən "Allah rəhmət eləsin" səsləri eşidilir.), Tağıyevin mülkünə rəhbərlik edərək, Tarix Muzeyi kimi xalqımızın sərvətinin daşıyıcısı olan bir idarəyə başçılıq etməyi bütün vəzifələrdən üstün tutmuşdur və ömrünün sonuna qədər bu layiqli vəzifəni yerinə yetirmişdir. Bir var insanın zahiri görünən tərəfi, bir də var onun mahiyyəti. Yəni təzahür baxımından çoxuna elə gələr ki, Əzizbəyova çox qibtə olunmalı bir həyat yolu keçib,–şan-şöhrət baxımından, mənsub olduğu ailə baxımından. Lakin onun çatdığı şan-şöhrət, onun nail olduğu bütün uğurlar keşməkeşli, gərgin həyat bahasına olub. Deyirlər ki, istedadı zəhmət üzə çıxarır, zəhmət parıldadır. Bu baxımdan onun ayı, günləri səhv salaraq, gecə-gündüz arxiv materiallarından işləyib üzə çıxartdığı faktlar, gərgin zəhmət, onun çox yüksəkliyə nail olmasına səbəb olmuşdur.

Burada İslama, müqəddəs dinimizə tez-tez müraciət olunur. Həmçinin də qeyd olundu ki, "Cənnət anaların ayağı altındadır". Eyni zamanda deyildi ki, elm adamına, bilikli adama ən rütbəli adam kimi baxılır, bu baxımdan həm qadın kimi, həm elm adamı kimi Püstəxanım Əzizbəyova da, eyni zamanda burada əyləşmiş və dünyasını dəyişmiş xanımlarımız da ən ali rütbəyə, hörmətə layiq qadınlardır.

Burada Məşədixanım Nemətin adı çəkildi. Yəqin ki, prezidentimizin alimlərlə yığıncağında da onun çıxışını eşitdiniz. Mən qeyd etmək istəyirəm ki, Azərbaycan qadınının cəsarəti, Azərbaycanda epiqrafiya elmini bir Məşədixanım Nemətin ifasında biz yüksək səviyyəyə çatdırmışıq. Yəni, bu baxımdan hakimlik və s. sahələrdə qadınlarımızın məşğul olması bir qədər təbii görünür. Amma tarix sahəsində qadınlarımızın məşğul olması Azərbaycan xalqında qadınların güclü potensialının üzə çıxmasını göstərir. Püstəxanım Əzizbəyova tarix sahəsində ilk elmlər doktoru adı alan qadındır. Püstəxanım Əzizbəyova haqqında çox danışmaq olar, lakin mən vaxtı nəzərə alıram. Bu yaxınlarda onun





70 illik yubileyini keçirəcəyik. Yəqin ki, o məclisdə ətraflı söhbət ediləcək. Bir daha məclis iştirakçılarına diqqətinə görə təşəkkür edirəm." (alqışlar)

## MƏŞƏDİXANIM NEMƏT

Natiqə təşəkkür edib çıxışıma davam edirəm: Əziz qonaqlar, məclis iştirakçıları, sizə təqdim edəcəyim növbəti xanımımız Məşədixanım Nemətdir. Əslində bu kişi qeyrətli, dəyanətli qadını təqdim etməyə ehtiyac yoxdur. Bizə elə gəlir ki, bu məclisdə onu tanımayan tapılmaz.

Məşədixanım Sədulla qızı Nemətova 1924-cü il, yanvarın 5-də Bakının Zabrat kəndində anadan olub. 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. Əvvəlcə namizədlik, sonra doktorluq dissertasiyası müdafiə edib (1969). 1953-cü ildən Elmlər Akademiyası Tarix İnstitutunda çalışır. 1971-ci ildən Epiqrafika qrupunun rəhbəridir. 1991-ci ildən SSRİ EA Şərqşünaslıq İnstitutunun Şərq xalqlarının yazılı abidələrini öyrənən mərkəzi əlaqələndirmə komissiyasının üzvüdür.

Məşədixanım Nemət Azərbaycanın orta əsr epiqrafik abidələrini tədqiq edir. O həmçinin Qafqaz ərazisində müsəlman kitabələri üzərində çoxlu tədqiqat işləri aparmışdır. Ona yaxın kitabın, onlarla elmi məqalənin müəllifidir...

Hər qadın eşqinin aləmdə bir ülviyyəti var,
Hər kişi boynuna düşmüş analıq minnəti var.

Götürək milliliyi, ya da ki, İslam tərəfin,
Bizim ellərdə əzəldən qadın hürriyyəti var.

Bakının hər tərəfində qadın alimlərimiz,
Zabratın da eləcə Məşədixanım Nemәti var.

Çevirib altını üstə o Azərbaycanın,
Yetişib bircə nəfər, gör ki, nə keyfiyyəti var!

Naxçıvan daşlarının sirrinə vaqif oldu,
Çünki, bilmişdi ora erməninin həsrəti var.

Artırıb şöhrətini öz əməliylə Vətənin,
Odu ki, cümlə-cahan içrə onun hörməti var.

Sona söylər ki, kim öz xəlqi üçün xidmət edib,
Özü dünyada ola, olmaya ya, qiyməti var!

Məşədixanım Nemət haqqında danışmaq üçün sözü Tarix İnstitutunun əməkdaşı Şahin Fazilə verirəm. Nədənsə, çox qısa qeydlə kifayətlənir: "Əslində, sən düz qeyd elədin, Sona, Məşədixanım haqqında çox danışmağa zərurət, ehtiyac yoxdur. Mən bir-iki kəlmə qeyd eləməyi zəruri hesab edirəm. Mən aspiranturaya girən vaxtdan Məşədixanımı tanıyıram. Məşədixanım, bizim bu muzey əməkdaşımız gözəl qeyd elədi, elə qəliz xətləri oxuyub ki, onu hər şərqşünas oxuya bilməz. Professor Vasim Məmmədəliyev gözəl bilir, ərəb əlifbası ilə bir neçə xətt mövcuddur. Onları oxumaq özü bir çətin iş olduğu halda, təsəvvür edin ki, qədim daşlar–min il, min beş yüz il bundan qabaq yazılan daşlar Məşədixanım tərəfindən oxunub. Mən Məşədixanımla bir yerdə başqa ölkələrdə də olmuşam, çox görkəmli alimdir öz sahəsində, epiqrafikanın əsasını qoyub Azərbaycanda. Dərbənddə, Mahaçqalada biz elmi konfransda olduq, orada çox gözəl çıxış elədi və dünyanın müxtəlif yerlərindən gəlmiş alimlər belə bir qadını tanıyıb, yaratmaq istəyini öz gözləri ilə gördülər, müşahidə etdilər və əmin oldular ki, Azərbaycanda belə bir görkəmli ziyalı alim qadın vardır. Məşədixanımla mən dəfələrlə Moskvada da olmuşam bir yerdə. Gözəl çıxışlar eləyib. Məşədixanım haqqında mən bir kəlmə demək istəyirəm ki, Məşədixanım Nemət özü də şairdir. Əgər imkanı olsa, bir şeir deyər, qulaq asarıq. Sağ olun".(alqışlar)

Məşədixanım Nemət sözə başlayır və özü haqqında geniş, olduqca səmimi danışır: "Mənim əzizlərim, Şahin deyir şair,





ancaq ki... Mən işdə bəzən çətinə düşəndə şeir demişəm, amma mən şair deyiləm. Bir zamanlar elm sahəsində çətinliklər oldu. Bizim ekspedisiyalar dayandı və mənim yazdığım əsərlər çap olunmadı və buna görə də çox belə mütəəssir oldum. Elə bil işdən əlim soyudu, özüm özümü tanımadım və belə fikirləşdim ki:

Məni məndən ayırmışdır zalım zaman,
Elmin əlindən almışdır zalım zaman.
Çalışıram-vuruşuram, haqqı tapam,
İmkan vermir, amansızdır zalım zaman.

Belə, bəzən görürsən ki, yazılır. Məndən əvvəl burada qadınlar haqqında danışdılar ki, onlar ziyalı ailəsində doğulublar, yaşayıblar. Öz valideynlərinin işini davam etdirirlər. Amma mən sizə deyim ki, mən kəndçi qızıyam, zabratlıyam, kəndçi qızıyam. Atam, anam adını yaza bilməmişdir. Amma mən on beş yaşından əmək fəaliyyətinə başlamışam, orta məktəbin səkkizinci sinfindən işləmişəm, oxumuşam. Ali məktəbi də işləyə-işləyə oxumuşam və özüm özümə həyatda yol açmışam.

Bəzən görürsən ki, bir qəbiristanda iş aparanda, nərdivan başında inşaat kitabələri köçürəndə, camaat ətrafıma toplaşıb, deyirdilər ki, balam, bu nə işdir, sən niyə bunu işləyirsən?

Bizim rəhmətlik Ə.Əlizadə çox böyük alim idi. O akademik bizim şöbə müdiri idi. Mən 54-cü ildə namizədlik işi yazmışam, müdafiə eləmişəm. Plan yazmışam ki, mən Şirvan zonasına çıxıram, çöllərdə epiqrafik abidələri işləmək üçün. O mənə dedi ki, mən sənin bu planına qol çəkmirəm. Necə yəni, sənin başına iş qəhətdir? Çöllərə düşəcəksən. Qəbristanlar, minillərlə insan ayağı dəyməyən yerlər, ilan-çılan içərisində çalışacaqsan? İş qəhətdir başına? Ərəb dilini, fars dilini bilirsən, Əlyazmalar Fondunda o qədər kitablar var, oturginən onlarla işləginən. Dedim, mən yox... O rahat iş otaqlarında işləmək bəlkə hər adamın işidir. Amma məni Allah-təala, ilahi bir qüvvə səfərbər elədi, saldı o çöllərə və məni həmişə müşayiət elədi və aparıb həmişə düz obyektin üstünə çıxartdı. Dövrəmə

yığılanlar həmişə sual verərdilər "Neylirsən, nə axtarırsan?" Bir dəfə Şəkidəydim. Bu şəkililər həmişə daş altında qızıl axtararlar. Dedim, qızıl axtarıram, qızıl əldə edəcəyəm. Düzüldülər dövrəmə, baxdılar, baxdılar, işim qurtardı, dedilər, axı sən, hanı qızıl tapmadın axı. Dedim, necə yəni yapmadım, mən bunları yığıram, bunlardan kitab yazıram, ayda 2500 manat maaş alıram. Onda 2500 manat çox böyük pul idi, 54-55-ci illərdə. "Bəs hə... hə di indi ha buni biz tapa bilmərik axı, sən tapdun buni". (Şəki ləhcəsində deyir). Sizin başınızı çox ağrıtmıram, belə şeyləri çox danışmaq olar. Müxtəsər, mən bu halda gördüm ki, kitabları çap eləmirlər və dedim:

Daş etmişdir ürəkləri
Daşa dönmüş kitabələr.
Qulaq verin türk babamın
Öyüdləri nələr söylər.
Neçə-neçə memar, nəqqaş.
Neçə xəttat adlarıdır,
Sənət tarixinə vermiş
Yadigardır kitabələr.
Əlimizdə pasportumuz,
Üzərində yazı olan
Vətən daşı,
Azərbaycan!
Torpağına kim sahibdir?
Kimdir onun vətəndaşı?
Röyalara dalmış azğın
Ermənimi, ya gürcümü?
Söylə, yoxsa Türk babamdır?
Ən tutarlı sənəddir bil,
Babamız Azərin
Məzar daşı.

Diqqətinizə görə sağ olun". (alqışlar)





## ZÜMRÜD QULUZADƏ

Təqdim edəcəyimiz növbəti xanım səmimiyyəti, sakit təbiətilə hamının hörmət və məhəbbətini qazanmış Zümrüd xanımdır.

Zümrüd Əliqulu qızı Quluzadə 1932-ci ildə Bakıda müəllim ailəsində dünyaya gəlmişdir. 1954-ü ildə Azərbaycan Dövlət Unversitetinin tarix fakültəsinin fəlsəfə şöbəsini bitirmiş, 1954-57-ci illərdə aspiranturada təhsil almış, 1959-cu ildə Moskvada namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Hal-hazırda Azərbaycan Elmlər Akademiyası Fəlsəfə İnstitutunun fəlsəfə tarixi şöbəsinin müdürüdür. Eyni zamanda "Şərq fəlsəfəsi problemləri" jurnalının baş redaktorudur.

Zümrüd xanım haqqında söz demək üçün məclisə müraciət etdikdə, yerdən səslər gəldi ki, Vasim müəllim çıxış eləsin. Amma Vasim müəllim etiraz edib dedi ki, akademiyanın işçiləri danışsa yaxşıdır. Amma mən də təkid elədim və məclis adından xahiş elədim, nəhayət, Vasim müəllimi razı sala bildik.

Filologiya elmləri doktoru, professor, Əməkdar Elm xadimi, BDU-nun İlahiyyat fakültəsinin dekanı, Qafqaz müsəlmanları İdarəsi Elmi-Dini şurasının sədri, İslam Konfransı Təşkilatı Müsəlman Hüququ Akademiyasının akademiki, İraq EA müxbir üzvü, Türkiyə Elmi Araşdırmalar Vəqfinin fəxri üzvü Vasim Məmmədəliyev dedi: "Zümrüd xanım bizim ən görkəmli filosoflardan biridir. Mən çox istərdim ki, onun haqqında akademiyanın işçiləri danışsın və gözləyirəm ki, akademiyanın işçilərindən biri ondan söhbət açacaqdır. Zümrüd xanım bizim Azərbaycan fəlsəfə tarixini və bizim orta əsr Azərbaycan filosoflarını tədqiq eləyən ən gözəl alimlərimizdən biridir. Məhz Zümrüd xanımın yaradıcılığı, elmi axtarışları sayəsində indinin özünə qədər bizim ədəbiyyatımız üçün bir müəmma olan Nəsimi kimi böyük şəxsiyyət Azərbaycan fəlsəfə tarixində, Azərbaycan ictimai fikir tarixində öz yerini tutmuşdur və bizim ola bilər ki, başqa filosofları işləyən çoxdur, amma islamın çox

mürəkkəb təriqətlərinin çulğalaşması nəticəsində meydana gələn hürufilik öyrənilməyib. Hürufiliyi bilmək üçün həm gözəl islamı bilmək lazımdır, həm islamaqədərki zərdüştlük dinini bilmək lazımdır, başqa flektiv dilləri bilmək lazımdır və bundan əlavə fəlsəfəni bilmək lazımdır. Məhz bu keyfiyyətlərinə görə, bu gözəl ümdə cəhətləri özündə birləşdirdiyinə görə Nəsimi kimi böyük bir dühanın yaradıcılığının öyrənilməsi Zümrüd xanıma nəsib olub və mən Zümrüd xanım haqqında onu demək istərdim ki, Zümrüd xanım çox gözəl bir alim olmaqla yanaşı, həm də çox zərif, qayğıkeş bir xanımdır. Zümrüd xanım bizim Azərbaycan qadınlarına xas olan ən gözəl keyfiyyətləri özündə birləşdirən xanım-xatın bir alimdir. Onun həyat yoldaşı Vaqif müəllim–Vaqif Aslanov bizim çox görkəmli alimimizdir, bizim böyük dilçimizdir, bizim böyük filosofumuzdur və son zamanlar bir az xəstədir, Allah ona şəfa versin. Zümrüd xanım işini-gücünü bir tərəfə qoyub, Vaqif müəllimin qayğısını çəkməklə məşğuldur. Mən arzu eləyirəm ki, tezliklə Vaqif müəllimə Allah şəfa versin və Zümrüd xanım yenidən bizi öz yeni tədqiqatları ilə sevindirsin. Həyat yoldaşı Vaqif müəllimə Allahdan şəfa diləyirəm." (alqışlar)

### *MƏSUMƏ MƏLİKOVA*

Dəvətnamədə adı olan, lakin məclisimizdə iştirak edə bilməyən xanımlarımızdan biri də hüquq elmləri doktoru elmi dərəcəsi almış ilk Azərbaycan qadını Məsumə xanım idi. Düzü, mən Məsumə xanımla ilk dəfə idi ki, görüşürdüm. Zahirən baxanda gələni pis qarşılayan adam deyildir. Yəni, etika xatirinə olsa da adamı qəbul edib-yola salır. Amma gəlişimizin məqsədini biləndə qəribə reaksiya verdi, hətta belə bir söz də dedi ki:"...Yəni oturub bir-birimizi tərif edəcəyik?!" Düzünə qalsa, onun sözləri mənim xoşuma gəldi. Çox istərdim ki, insanlar, xüsusən də vəzifədə olanlar tərifə aludə olmasınlar. Amma bizim istəyimizdən asılı olmayaraq, vəzifə elə şeydir ki, istər-istəməz insanda





tərifə aludəçilik yaradır. Ona görə də tərifdən xoşu gəlməyən adamların heç vəzifədən də xoşu gəlmir.

Tarixən ən böyük vəzifə şahlıq olub. Şahlar haqqında belə bir hədis var: "Şahlar ömür boyu üç şeyə vurğun olarlar: var-dövlətə, qadına və tərifə. Zaman keçdikcə, yəni qocalanda bunlardan ikisinə həvəsləri ölər, lakin tərifə olan ehtiyacları daha da artar". Aydın məsələdir ki, bir adam qocalanda o dünyanı düşünmürsə, bu dünya ilə yaşayırsa, deməli, onun mənəviyyatı artıq korlanmışdır. Çünki, insan yaş üstünə yaş gəldikcə kamilləşməlidir, kamilləşmirsə, əksinə daha da cahilləşir. Tərifə aludəçilik də cahillik əlamətidir. Çünki, tərif ona aludə olanları korlayır, normal adam üçünsə normal adi insani tələbatlardan biridir, sadəcə olana görə verilən qiymətdir...

O ki qaldı ziyalıların bir məclisə yığılıb, bir-biriləri haqqında xoş söz deməsinə, məncə burada elə böyük qəbahət yoxdur. Bir tərəfdən məclis iştirakçıları o adamı tanıyır, kim olduğunu bilir, digər tərəfdən isə bütün bu söhbətlər videolentə alındığı üçün gələcək nəsillərin də Azərbaycan ziyalılarını tanımasına şərait yaradır. Mən bu mənada Hacı İntiqamın bu işini qiymətləndirirəm. Bu gün Əlyazmalar İnstitutunda arxiv materialları içərisində itib-batırıq, bir şair haqqında, bir alim haqqında beş kəlmə söz öyrənmək üçün bəzən bir həftə, bir ay axtarırıq. Bu gün yaşayan və sabah dünyada olmayanları da sabah gələcək nəsil beləcə axtaracaq. Niyə biz hazır materiallarla onlara kömək etməyək. Vaxtikən bizim evdə ayda bir dəfə, hər ayın 19-da "19 elmi-ədəbi məclisi"nin yığıncağı keçirilirdi. Orada "Füzuli" ədəbi məclisinin, "Məcməüşşüəra"nın üzvləri, habelə başqa şairlər, yazıçılar, jurnalistlər, xanəndələr iştirak edirdilər. O məclisin əksəriyyət yığıncaqları videolentə alınıb. Amma "Füzuli" ədəbi məclisi beş ildir fəaliyyət göstərir, ondan bir lent yazısı belə yoxdur. Sabah onun tarixi nədən yazılacaq, bilmirəm. "Biz bu gün varıq, sabah yox",-deyilən bir el sözümüz var. Amma qalan o lentə aldıqlarımız olacaq. Bu günün sənətkarını gələcək nəsil, təkcə arxiv materialları ilə tanımayacaq, bütünlüklə göz önündə

olduğu kimi görəcək, özünü tanıyacaq. Bunun nəyi pisdir ki?...

O ki qaldı Məsumə xanıma, sualaltı danışmağından, müəmmalı söz verməyindən, onun gələcəyinə inamımız yox idi, amma yenə də ssenaridə onun haqqında məlumata yer vermişdik. Məclis iştirakçılarına çatdırdığımız həmin məlumatı burada qeyd etməyi lazım bilirik. Qoy, gələcəkdə hansı arxivinsə bir küncünə düşəcək bu kitabın hansı bir saralmış vərəqindəsə Azərbaycanın ilk hüquq elmləri doktoru olan qızı haqqında da gələcək nəsil nəsə tapsın...

Məsumə Fazil qızı Məlikova 1929-cu il, noyabrın 22-də Bakıda anadan olmuşdur. 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş və Dövlət hüququ kafedrasında saxlanımışdır. Moskvada namizədlik, daha sonra isə 1973-zü ildə doktorluq dissertasiyası müdafiə edərək, hüquq elmləri doktoru alimlik dərəcəsi almışdır. 1974-cü ildə professor olmuş, 1989-cu ildə akademiyanın müxbir üzvü seçilmişdir. Hal-hazırda Bakı Dövlət Universitetinin dövlət hüquq nəzəriyyəsi və tarixi kafedrasında müdür vəzifəsində çalışır.

Ömrünün 40 ildən çoxunu bu işə sərf edən Məsumə xanım bir çox kitabların və elmi məqalələrin müəllifidir. Respublikamızın ictimai-siyasi həyatında xidmətləri ilə seçilən Məsumə xanım 1969-cu ildə Azərbaycan SSR əməkdar hüquqşünası adını almış, 1976-cı ildə "Şərəf nişanı" ordeni ilə, daha sonralar isə bir çox medal və fəxri fərmanlar ilə təltif olunmuşdur.

Məsumə xanım 1976-cı ildə Beynəlxalq Siyasi Elmlər Assosiasiyasının X Konqresinin (İngiltərə, Edinburq) nümayəndəsi olmuşdur. Azərbaycanın siyasi-elmi əlaqələrinin inkişafı problemlərilə əlaqədar olaraq ABŞ-da, Kanadada və s. xarici ölklərdə olmuşdur. Azərbaycan Respublikası Qanunvericiliyinin, Azərbaycanın siyasi suverenliyi haqqında Konstitutsiya qanununun hazırlanmasında iştirak etmişdir...

Onu da qeyd edim ki, Məsumə xanım məclisə gələ bilmədiyinə görə gələn yoldaşlardan biri ilə öz üzrxahlığını bildirmişdir...





* * *

Mənim üçün çox xoş idi ki, bu məclisdə şairlər, xüsusən də "Füzuli" ədəbi məclisinin üzvləri iştirak edirdilər. Lakin bu sevincin arxasında bir kədər də var idi ki, məclisin sədri, hamımızın sevimlisi, ustadımız, mənəvi atamız olan Hacı Mail aramızda yox idi. Onda Hacı Mail İranda müalicə olunurdu və mən bu sətirləri yazarkən Hacı Mail yenə də İrandadır. Bu onun müalicə üçün İrana ikinci gedişidir. Biz çox ümüd edirik ki, gələn məclislərimizdə o bizimlə olacaq. Səhv etmirəmsə, mən həmin məclisdəki çıxışımda da belə demişdim. Allah ona şəfa versin, "Füzuli" məclisini başsız qoymasın...

Məclisdə sözü Arifə verdim. Şair dostumuz Arif Buzovnalıya. Arif özü orta təhsilli olsa da, müəllim ailəsində anadan olub. Atası Rauf Əliyev savadı, mənəvi dəyərləri ilə seçilən bir ədəbiyyat adamı kimi tanınmışdır. Arifin "Ozan" nəşriyyatı tərəfindən buraxılmış "Ömrün ötən anları" kitabı müasir dövrdə divan ədəbiyyatının ən dəyərli nümunələrindəndir. Arif çıxışını təbriklə başlayıb, yenicə yazdığı şeirlə bitirdi: "Əziz və möhtərəm xanımlar, hörmətli məclis əhli, mən, əvvəla, martın 10-u olmasına baxmayaraq, bütün qadınları təbrik edirəm, hamınıza cansağlığı, gözəl həyat arzulayıram, sizə "xoş gəlmisiniz" deyirəm. Hacı İntiqamın belə bir təşəbbüsü mənə xüsusilə zövq verdi. Çünki, o bilir, Nəcibə Məlikova mənim kəndçimdir, tanıyıram, Züleyxa Seyidməmmədova haqqında hardasa oxumuşam, eşitmişəm, hal-hazırda yaşayanlardan Məşədixanım Nemətin kitablarını oxumuşam, Amalya xanımın rollarını görmüşəm. Amma başqaları haqqında məlumatım yox idi. Burada hər kəs haqqında məlumat almaq, onun həyatı, fəaliyyəti barəsində öyrənmək olur. Özgə nə deyim, məndən böyüklər danışacaqlar, mən isə qadınlara həsr olunmuş bir şeirimi oxuyum:

Heyrət ki, ey qadın, nə füsunkardı xilqətin.
Sirli, sehirli varlığısan sən təbiətin.

Adəmdən özgə hər şeyə sənsən həyat verən,
Hər kəs cahanda səndən alıb ilkin ibrətin.

Bədbəxt edən də aləmi, xoşbəxt edən də sən,
Sənsiz çətin ki, anlaya bir kəs səadətin.

Sən varlığınla zinətisən cümlə aləmin,
Varsansa sən, nə qiymti var özgə zinətin.

Eşqin rəhm salıbdı neçə daş ürəklərə,
Sənsən cahanda rəmzi bu eşqin, məhəbbətin.

Şövqündə rəssam əlləri nəqqaşlıq öyrənib,
Zövqündə bəstəkar qazanıb ali fitrətin.

Sərkərdələr önündə sənin diz çöküb yerə,
Şahlar da səndən ötrü alıb hakimiyyətin.

Varmı cahanda kimsə, sənə tabe olmadı?
Adəm sənin bir istəyinə satdı cənnətin.

Çox leylilər məhəbbətə can qurban etdilər,
Ta ki, bilinsin aşiqə vardır sədaqətin.

Naz eyləməkdə bəhsə girə huri, ya mələk,
Çatmaz sənə, gər artıra hər gün məharətin.

Gah elmdir nişan sənə, gah səhnədir məkan,
Meydanda pəhləvan kimi də var şücaətin.

Mənidə ol gözəl ki, budur yarı insanın,
Bunsuz nə xeyri gəldi-gedər hüsni-surətin.

Daim qürurlu ol ki, ədəb-ərkan itməsin,
Dünyada ali rəmzisən əxlaqın, ismətin.

Mən də əsirinəm sənin, heyhat, bu zənn ilə,
Ta ki, qədəmlərində tapım cənnət izzətin.

Arif nə söz yazırsa, alır səndən ilhamı,
Vəsfində artırır sözünün qədrü qiymətin.





Arif Buzovnalının alqışlarla qarşılanan çıxışından sonra Maştağadan qonaq gəlmiş tarix müəllimi Seyidmiri Aslanov söz istədi və çox qısa danışdı: "Axşamınız xeyir olsun. Mən birinci öz minnətdarlığımı bildirmək istəyirəm bu məclisə, bu hörmətli məclisə dəvət olunduğum üçün. Ev sahibinə və başqa zəhmət çəkənlərə təşəkkür edirəm, xüsusilə ona görə ki, olduqca hörmətli alimlərimizi, sənətkarlarımızı görməyə,–elələri var ki, adlarını eşitmişdim, amma imkan olmamışdı özlərini görməyə,–belə bir imkan yarandı. Xüsusi olaraq mən sevinirəm ki, bu məclisə Məşədixanım müəllimə gəlib. Otuz il bundan qabaq Azərbaycan Dövlət Universitetində tarix fakültəsinin axşam şöbəsində bizə dərs deyib. Çox sağ olsun. Çox sevindim ki, yenə onu gördüm... Mən Cəfər Cabbarlının "Ana" şeirindən bir parça ilə qadınlarımızı, analarımızı təbrik etmək istəyirəm, mənə elə gəlir ki, Cəfər Cabbarlının şeiri qədər qüvvətli ikinci bir "Ana" şeiri yazılmayıb:

Ana! Ana! Bu adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir.
Onun əlilə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

Təbrik edirəm bütün qadınları, bütün anaları. Sağ olun."

Alqışlar bitən kimi Hacı İntiqam işarə edir ki, Yavər Şüvəlaniyə söz verim. Yavər Şüvəlani satirik şeirlərilə daim məclislərin qonağı olur və alqışlanır. Bakıətrafı kəndlərdə onu hamı tanıyır və sevir. Məmnuniyyətlə, ona söz verdim və bir neçə satirik şeirini oxudu. Amma mən kitaba onun Hacı İntiqama həsr olunmuş və "Xüsusi buraxılış"da çap olunmuş bu şeirini daxil etməyi lazım bildim:

Əssəlam əleyküm, Hacı İntiqam.
Görüm ki, yar olsun yaradan sənə.

Kərəmü səxadə bil çata bilməz
Bizim bu diyarda bir insan sənə.

Əlillər, zəlillər, miskin, şikəstlər,
Bil ki, duaçıdır hər zaman sənə.

Ruzi-qiyamətdə nədəndi qorxun?
Olacaq əməlin pasiban sənə.

Məqsədin alidir, ürəyin geniş,
Qeyri-iş görünər nagüman sənə.

Əqidən möhkəmdir, girişə bilməz
Nə İblis, nə də ki, bir şeytan sənə.

Yavərin sözünə zamindi Xaliq,
Verəcək əvəzin o Rəhman sənə!

## *ZƏRİVƏ BUDAQOVA və NƏZAKƏT AĞAZADƏ*

Keçən ilin martında Hacı İntiqamın evində qadınlarla bağlı keçirilən məclis ədəbiyyatçılara həsr olunduğu üçün, bu dəfəki məclisdə ancaq dilçi qadınlara yer vermişdik. Məclisdə də bunu qeyd elədim və həmin xanımlarımız haqqında çox qısa məlumat verdim: "Zərifə Budaqova 1929-cu il aprelin 28-də Yerevanda anadan olub. 1963-cü ildə doktorluq dissertasiyası müdafiə edib, 1968-ci ildə professor adı almışdır. Elmi fəaliyyətə Nəsimi adına Dilçilik İnstitutunda başlamış, 1953-cü ildə müasir Azərbaycan dili şöbəsinin müdiri olub, neçə il həmin tədqiqat institutuna rəhbərlik etmişdir. Bir çox kitabların və məqalələrin müəllifidir. Dilçiliklə bağlı ölkədə və xaricdə keçirilən bir çox ali məclislərin, yığıncaqların iştirakçısı olmuşdur.

İkinci dilçi xanımımız Nəzakət Həsən qızı Ağazadədir. 1910-cu il, fevralın 13-də Gəncədə anadan olub. 1966-cı ildə doktorluq dissertasiyası müdafiə edib, professor adı almışdır. Nəzakət xanım 1942-ci ildən 1961-ci ilə kimi Azərbaycan Dövlət Xarici Dillər İnstitutunda alman dili kafedrasının müdiri vəzifəsində və 1966-cı ildən 1969-cu ilə qədər prorektor vəzifəsində çalışmışdır. 1969-cu ildən ömrünün sonuna kimi





Azərbaycan EA-nın xarici dil kafedrasına rəhbərlik etmişdir. Ali məktəb tələbələri üçün dərsliklərin yazılmasında və ixtisaslı kadrların hazırlanmasında Nəzakət xanımın böyük xidmətləri olmuşdur.

Məclisə müraciət etdikdə, gözlənilməz vəziyyətin şahidi olduq. Bu iki xanım haqqında nə qədər danışmaq istəyən varmış. Mən üzr istəyib, ancaq iki adama söz verə biləcəyimi bildirdim. İlk sözü Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi Bəhruz müəllimə verdim. O təkcə Zərifə xanımla Nəzakət xanım haqqında deyil, eyni zamanda Püstəxanım Əzizbəyova və Züleyxa Seyidməmmədova haqqında da fikirlərini bildirdi: "Hərə bir şey deyir. Bayaq Püstəxanım haqqında danışdılar. Mən iki faktı demək istəyirəm. Birincisi, Püstəxanım burdan, Şüvəlandandır. İkincisi, bir şeyi xatırlatmaq istəyirəm, Zeynalabidin Tağıyevin qızı Sara vəfat edəndə, Püstəxanım öz mərdanəliyini göstərdi, sinəsini irəli verdi, onun cənazəsini atasının mülkündən, Tarix Muzeyinin binasından götürüb dəfn elədi...

Zərifə Budaqova ilə qırx il bir yerdə işləmişik. O, Azərbaycan Ağsaqqallar Şurasının sədri Budaq Budaqovun yoldaşı idi. Özü də 1948-ci ildə Ermənistandan SSRİ Nazirlər Sovetinin qərarı ilə köçürülənlərdən idi. Zərifə xanım çox kişi kimi qadın idi. Niyə Akademiyanın həqiqi üzvü olmadı? Çünki, dedilər ər-arvad, ikisi də eyni vaxtda akademiyanın üzvü ola bilməz. Bir ailədən olmaz. Ona görə də Zərifə xanım öz sənədlərini geri götürdü və Budaq Budaqov akademiyanın həqiqi üzvü oldu. Zərifə xanımın vəfatı çox faciəlidir. Noyabrın yeddisində bayram eləyirdik. Nümayiş idi...

Nəzakət Ağazadə haqqında: Əsəd Ağayevin qızıdır. Azərbaycanda Respublika Parlamenti müavini. Sədr Topçubaşov xaricdə yaşamışdır. Ona görə də rəhbərlik Əsəd Ağayevin üstündə olub. Əsəd Ağayev 1920-ci ildə Azərbaycan Demokratik Respublikası istefa verəndən sonra bir növ aradan çıxmaq üçün Tiflisə gedir, səhərisi onu vurub öldürürlər. Mirzə Fətəli Axundovun qəbrinin

yanında dəfn olunub. Son vaxtlar məlum olub ki, onu da ermənilər təşkil eləyiblər. Bu qədər. Nəzakət xanımın öz vəfatı da çox faciəlidir. Bu adam Almaniya Demokratik Respublikasından Almaniya Federativ Respublikasına gedəndə vəfat edir, 7-8 gündən sonra...

Züleyxa Seyidməmmədova da Şüvəlandandır. Burda anadan olub, müharibədə böyük xidmətləri olub. Müharibədən sonra da ictimai-siyasi həyatda böyük rol oynayıb. Sülh uğrunda mübariz olub, bir çox xarici ölkələrdə sülh uğrunda mübarizə aparan təşkilatlarla birgə iş aparıb..."

Alqışlardan sonra sözü Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun fransız dili kafedrasının müdiri Əsgər Zeynalova verdim. Əsgər müəllim Zərifə xanım və Nəzakət xanım haqqında tədqiqat işi aparmasından və bu tədqiqatlarda onların həyatını, fəaliyyətini, elmi yaradıcılığını, habelə ictimai-siyasi həyatdakı xidmətlərini işıqlandırmasından danışdı. Eyni zamanda qeyd etdi ki, Nəzakət Ağazadə olmasaydı, Xarici Dillər İnstitutundakı alman dili mütəxəssisləri olmazdı. İnstitutda bu sahədə nə qədər elmlər namizədi varsa, hamısı onun yetirmələridir. Əsgər müəllim təvazökarlığından çox qısa danışdı və onunla birlikdə məclisdə iştirak edən həmkarı, həmin institutun müəllimi Elmira xanımı bizə təqdim etdi və bildirdi ki, Nəzakət xanım haqqında o daha ətraflı danışa bilər. Elmira xanım sözünə belə başladı: "Nəzakət xanım mənim yox, anamın dayısının yoldaşıdır, amma soruşanda deyirəm ki, dayımın yoldaşıdır, sonra başa salıram. Mən onu şəkildə gördüm, çox mütəəssir oldum. Şəkildə necədirsə, həyatda da eləydi. İstər adi vaxtlarda, istərsə də xəstə vaxtlarda, fərqi yox idi, həmişə çox şux qadın idi. Sonuncu dəfə Almaniyaya gedəndə yoldaşına demişdi ki, bu dəfə gedirəm, bir daha getməyəcəyəm. Elə Rostov şəhərində xəbər gəldi ki, vəfat edib. Bu gün onun xatirəsin yad etdiklərinə görə adamlara təşəkkür edirəm. Ev sahibinə, evin xanımına təşəkkür edirəm, çox sağ olun".

Haçansa Mirzə Əbdülxalıq Yusifin "Olmaz" rədifli bir qə-





zəlinə nəzirə yazmışdım. Həmin şeiri ssenariyə salmışdım, dilçilərin xatirəsinə ithaf kimi məclisdə də oxumuşdum və onu burada da verməyi məsləhət bildim:

Əgər dil olmasa, ünsiyyət olmaz.
Əgər üns olmasa, cəmiyyət olmaz.

Bu birlik, yüksəliş sevgiylə mümkün,
Əgər eşq olmasa, ülviyyət olmaz.

Əgər pak olmasa zatən bir insan,
Vura baş ümmana, qüdsiyyət olmaz.
Xəbislik varsa insanın içində,
Nə qədri dərs ala, xoşniyyət olmaz.

İlahi verməsə ilham, yazarsan,
Olar söz toplusu, şeriyyət olmaz.

Sona, cəmiyyətin bünyadıdır dil,
O yoxsa, heç nədə keyfiyyət olmaz!

* * *

Məclisdə elmiliyin, rəsmiyyətin bir qədər sıxıntı yaratdığını hiss etdiyimizçün sözü musiqiyə verdik. Tərlan Mustafayev bizə bir dəstgah oxudu. Orada Füzuli fəryadından xəbər tutduq, Natəvan həsrətindən təsirləndik, Hacı Mailin vətən məhəbbətindən qidalandıq. Natiqin tarzənliyinəsə heç söz ola bilməzdi. Burada bir haşiyə çıxmaq istəyirəm. "Füzuli" ədəbi məclisinin yığıncaqlarına həmişə gözəl xanəndələr gələrdi: Ağaxan Abdullayev, Əlibaba Məmmədov, Elnarə Abdullayeva və başqaları. Amma Tərlanla Natiq bizim məclisin son vaxtlar daimi qonaqlarıdırlar. İstər Natiqin tarda ifası, istərsə də Natiqin müşayiəti ilə Tərlanın ifasında muğam üstündə səslənən məclis üzvlərinin qəzəlləri bizə xüsusi zövq verir. Mail müəllim də onların gələcəyinə böyük ümüd bəsləyir. Biz də ümüd edirik və onlara böyük uğurlar arzulayırıq.

* * *

Musiqidən sonra istədik ssenari üzrə kimyaçılarımızdan söhbət açaq. Amma Amalya xanım tələsdiyini bildirdi, ona görə də incəsənət işçilərini irəli saldıq. Qısa da olsa, Azərbaycan səhnəsi haqqında nəsə deməyi lazım bildik: "Azərbaycan səhnəsi öz inkişafında çətin, lakin uğurlu bir yol keçmiş, burada dünya şöhrətli musiqiçilər, rəqqaslar, aktrisalar, balerinalar, rejissorlar və sənətşünaslar yetişmişdir. Bunlardan Tamilla Mahmudova, Ağabacı Pzayeva, Şəfiqə Axundova, Həqiqət Rzayeva, Əzizə Məmmədova, Afaq Məlikova, Xurşud Ağayeva, Gülcahan Məmmədova, Rəfiqə Axundova, Cəmilə Novruzova və b. göstərmək olar və bu siyahını "n" qədər uzatmaq olar. İstər respublika daxilində, istər keçmiş SSRİ səviyyəsində, istərsə də xarici ölkələrdə sənət adamlarımızın, xüsusilə qadın sənətkarlarımızın qazandığı uğurları xatırlamaq kifayətdir ki, adını çəkdiyimiz və çəkə bilmədiyimiz xanımlarımızın nə kimi istedada, qabiliyyətə malik olduqlarını və mədəiyyət tariximizdə nə kimi böyük rol oynadıqlarını biləк.

## *NƏCİBƏ MƏLİKOVA və AMALYA PƏNAHOVA*

Məclisdə iştirakçılara xüsusi təqdim etdiyim qadınlardan biri də yaddaşlarda məsum çöhrəsi ilə silinməz iz buraxan, yaratdığı obrazlarla özünü sevdirən gözəl aktrisamız Nəcibə xanımdır. O, bizim üçün bir də ona görə əzizdir ki, Azərbaycan poeziyasında öz dəst-xətti olan gözəl şairimiz Haşım bəy Saqibin qızıdır.

Nəcibə Məlikova 1921-ci il, oktyabrın 25-də Bakının Buzovna qəsəbəsində anadan olmuşdur. Səhnə fəaliyyətinə 1938-ci ildə Azərbaycan Dövlət Dram Teatrında başlamışdır. 1951-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunu bitirmişdir. Respublikanın müxtəlif teatrlarında, "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərən Nəcibə xanım vaxtaşırı yenə də Azərbaycan Dövlət Dram Teatrına qayıtmış, oradakı fəaliyyətini davam etdirmişdir. Ona görə də Nəcibə xanımın səhnə fəaliyyəti bir yönümdə





olmamışdır. Onun istər lirik, istər komik, istərsə də səciyyəvi rolları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmış və o özünü səhnədə tam, bütöv sənətkar kimi təsdiq etmişdir.

Nəcibə xanım istər Şölə xanım, Şəhrəbanu xanım olsun, istər Xumar, Xuraman olsun, istərsə də Estreliya olsun ("Sevilya ulduzu"- Lope de Veqa), fərqi yoxdur, tamaşaçı üçün sənətkardır, hər hansı bir rolda özünü sənətkar kimi tanıdan aktrisadır. İstər teatr səhnəsində olsun, istər kino, yenə də Nəcibə xanım yaddaqalan obrazlarda rəğbətlə qarşılanmış, daim sevilmişdir. "Ögey ana", "Qanun naminə", "Əhməd haradadır" və s. filmlərdə yaratdığı obrazları kim sevmir ki?!...

Azərbaycan səhnəsində öz yeri olan, sənətilə dünyanı fəth edən, yaratdığı obrazlarla könüllərdə özünə yer tutan, ömrünü-gününü səhnəyə həsr etmiş və indi də bu fəaliyyətini davam etdirən xanımlarımızdan biri də məclisimizdə iştirak edən xalq artisti Amalya xanım idi.

Amaliya Əliş qızı Pənahova 1945-ci il, iyunun 15-də Gəncə şəhərində dünyaya göz açmışdır. 1964-cü ildə Azərbaycan Dövlət Dram Teatrının səhnəsinə gəlmişdir. 1966-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. 1968-ci ildə Komsomol mükafatı, 1972-ci ildə Dövlət Mükafatı almış, daha sonra Əməkdar artist və Xalq artisti fəxri adlarına layiq görülmüş, şöhrət ordeni və medallarla təltif olunmuşdur. Amalya Pənahova hal-hazırda Türk dünyası aktyorları içərisində üç aktrisadan biri hesab edilir. Bakı Bələdiyyə teatrının bədii rəhbəri və direktorudur.

Könül istər sənin tək bir gülü, reyhanı seyr etsin,
Bu minvalla güman ki, rövzeyi-rizvanı seyr etsin.

Ucaldın sənətinlə sən bütün dünyanı fəth etdin,
Səni görməklə göz bir də bütün dünyanı seyr etsin.

Yaratdın şanlı obrazlar, səni hamı bu cür gördü,
Kim istərsə özün görsün, gərək pünhani seyr etsin.

Neçə könlü edib viran, olub tək səhnəyə canan,
Gəlib indi neçə viran sənin tək canı seyr etsin.

Sona çoxdan duyub eşqin, olub amalına heyran,
Baxıb indi bütün aləm sənə heyranı seyr etsin.

Sənətkar qadınlarımız haqqında söz demək üçün Hacı Rafiq söz istədi. O, Hacı İntiqama məclisə görə təşəkkür etdi. Sonra Zəhra xanım başda olmaqla bütün qadınların bayramını təbrik etdi. Azərbaycan həkimlərinin fədakarlığından danışdı, hətta Özbəkistanda bizim həkimlərin tərifi ilə bağlı bir xatirəni də yada saldı və nəhayət, əsas məsələyə keçib dedi: "Amalya xanım Azərbaycan səhnəsinin sönməz, parlaq ulduzudur. Amalya xanım bir də ona görə mənim üçün əzizdir ki, kişi işi görür. Bu saat kişilərin bacarmadığı bir işi görür. O boyda Bələdiyyə Teatrının ağırlığını çiyinlərində daşıyır. İlk özəlləşdirmə aparan, özəl əsaslarla teatr yaradan və belə bir işin öhdəsindən gələ bilən xanımdır.

Amalya xanımın daxilində elə bir əzəmət var ki, bu əzəmətlə yaratdığı obrazları bir qədər də əzəmətə mindirir. Mən Amalya xanıma bizim Azərbaycan səhnəsinin naminə, bizim milli sənətin naminə, Azərbaycan mədəniyyətinin naminə "həmişə yaşa" deyirəm. Həmişə belə gözəl, dərin, şux ol. Bizim səhnəmizin bayrağını ucalt, ucalara qaldır. Sağ ol. Bir daha təbrik edirəm".

Alqışlardan sonra məclis iştirakçılarının istəyi ilə Amalya xanım çıxış etdi: "Hörmətli qadınlar, hörmətli ağalar, görün doğrudan da Azərbaycan milləti nə qədər inkişaf eləyib ki, vaxtilə qadın rollarını kişilər yaradan dövrdən yetmiş il keçib və indi bayaq xanımımız çox gözəl bir siyahı, sənətçilərin silahısını sadaladı. Qadın sənətkarları da yaşadan Azərbaycan xalqıdır. Azərbaycan xalqı, siz sənətə bu qədər qiymət verməsəydiniz, sənətkarları bu qədər qiymətləndirməsəydiniz, ola bilər ki, bu qədər də qadın sənətkarımız yaranmazdı. Hər bir sahədə, istər ədəbiyyat, rəssamlıq, o cümlədən teatr sahəsində də... Bu gün





mənə ikiqat bir bayram bəxş elədi Hacı İntiqam. Birinci dəfə deyildir ki, mən burda məclisdəyəm...

Hacı, 1995-ci ildə Məkkədə olduq. Prezidentimizin səxavətiydi ki, - mənə də Allah qismət elədi və ondan sonra Allah bizə üz çevirdi, - bir neçə sənətkarları da ora daxil etmişdi. Yəni, əgər bu çətin dövrdə əgər sənətimiz yaşayırsa, əgər sənətkara qiymət verilirsə, bu ilk növbədə xalqın böyüklüyü, xalqın mədəniyyətindən xəbər verir və mən çox gözəl bilirəm ki, prezidentimizi necə sevirsiz. Siz onun burada ad gününü keçirmisiniz. Mən də burada olmuşam. Təsadüfi deyil ki, Zəhra xanım Zərifə xanım haqqında danışanda gözləri yaşardı. Bu bir ailədir. Biz fəxr edirik. Dünyanın hər hansı bir kürsüsündən onun səsi, sədası gələndə, xalqımız üçün fəxr edirəm və onun da mədəniyyət xadimlərinə, bütün sahələrə, xüsusən də mədəniyyətə olan diqqəti, qiyməti, biz sənətkarları da qiymətləndirir. Sizə öz təşəkkürümü bildirirəm ki, bu gün teatrın yarandığı gündür, 125-126 il bundan əvvəl Azərbaycan teatrı yaranmış, amma prezidentin fərmanı ilə bu il 125 illiyi qeyd edəndə, siz bu gün mənə ikiqat bayram bəxş elədiniz. Minnətdaram və arzu edirəm ki, bütün Azərbaycan qadınlarımızın qəlbində bahar olsun, sevinc olsun və deyildiyi kimi gün o gün olsun ki, torpaqlarımız azad olsun. Biz kişilərimizə arxayınıq və inanırıq ki, o gün gələcək ki, torpaqlarımız mənfur düşməndən azad olacaq və hələ deməli bizim bayram günlərimiz irəlidədir.

Bu gün biz qadınlarımızın şərəfinə bura toplaşmışıq. XIX əsr şairəsi Natəvanın br neçə sətri:

Əgər ki, xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.

Cəfayi-xari görüb köçdü bağdən bülbül,
Görən kim oldu bu gülşəndə aşinası gülün?

Əğyarə meyl elədi, almadı vəfa nəzərə,
Yetişdi bülbülə çox-çox qəmü cəfası gülün.

Bülbülə qismət olan o qəm, cəfa bizim xanımlarımıza heç vaxt qismət olmasın. Onların da xoşbaxtlığı siz kişilərin əlindədir. Ona görə də hamınıza cansağlığı, könül xoşluğu arzulayıram. Çox sağ olun".

Alqışlardan sonra Amalya xanıma xatırlatdım ki, özüylə musiqiçilər gətirmişdir, bəlkə onları dəvət edək. Amalya xanım yenidən davam elədi: "Mən Dövlət Bələdiyyə Teatrının başçısıyam. Teatrın aparıcı bələdçisi Əfqan Sultanov burada iştirak edir və biz sözü ona verək, gözəl bir muğamla Bakı Bələdiyyə Teatrı adından sizi salamlasın".

Əfqan Sultanov təqdim etdiyi musiqi nömrəsindən əvvəl qısa bir təbrik dedi: "Hacı İntiqama təşəkkür edirəm. Nəinki Şüvəlanda, mənə elə gəlir ki, Azərbaycan torpağında onu tanımayan yoxdur. Öz xeyryyəçiliyi ilə–Tağıyevdən qalıb,– ata-babaların yolunu davam etdirir. Çox sağ olsun. Mən bizim qadınlarımızı təbrik edirəm... Analarımız, bacılarımız olan yerdə həmişə gözəllik olubdur. Bu ay başdan-başa bayramlar ayıdır. Novruz bayramı, sonra Qurban bayramıdır. Təbrik edirəm, ana-bacılarımıza cansağlığı, xoşbəxtlik arzulayıram". (alqışlar)

* * *

İncəsənətin digər sahələri olan rəssamlıqda, heykəltəraşlıqda da qadınlarımızın rolu böyükdür. Elmira Hüseynova, Reyhan Topşubaşova, Elmira Şahtaxtinskaya, İzzət Seyidova, Elmira Süleymanova, Qeysər Kaşıyeva, Zivər Məmmədova və başqaları gözəl sənət əsərlərilə mədəniyyət tariximizi zənginləşdirmişlər.

### *MARAL RƏHMANZADƏ*

Məclisimizdə rəssam qadınlarımızdan Maral Rəhmanzadə iştirak etməliydi. Amma səhhəti yaxşı olmadığı üçün bizi bu şərəfdən məhrum etdi. Ssenaridə gedən məlumatı burada veririk: "Maral Yusif qızı Rəhmanzadə 1916-cı il, iyulun 23-də Bakıda anadan olmuşdur. 1933-cü ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmiş və 1934-1940-cı illərdə Moskva Rəssamlıq İnstitutunda təhsilini davam etdirmişdir. Yaradıcılığının ən qaynar çağları müharibə illərinə təsadüf etdiyindən, onun ilk əsərlərində müharibənin ağrı-acıları, Azərbaycan qadınlarının çətinliklərə sinə gərərək, arxa cəbhədə apardıqları mübarizə özünün dolğun əksini tapmışdır. 1940-cı ildə "Azərbaycan qadını keçmişdə və indi" mövzusunu işləyən Maral xanım artıq 1942-ci ildə "Azərbaycan qadını müharibə illərində" mövzusunda əsərlər yaradır.





Mühaibədən sonra hamının həyatında, dünyabaxışında, arzu və istəyində dəyişiklik yarandığı kimi, Maral Rəhmanzadə yaradıcılığında da tamam başqa bir yönüm nəzərə çarpır. Qrafikaya meyl edən Maral xanım təbiət təsvirlərinə aid silsilə əsərlər yaradır. Əlbəttə, Maral xanımın yaradıcılığı bununla məhdudlaşmır. İldən-ilə böyüyən, püxtələşən, sənət dünyasının daha yüksək zirvələrini fəth etməyə can atan Maral xanım böyük uğurlar qazanır və bu uğurlar həm özünə, həm də doğma vətəni Azərbaycana şöhrət gətirir. Çünki, illər keçdikcə Maral xanımın əsərləri respublika sərhədlərini aşır və bir çox xarici ölkələrdə təşkil olunan sərgilər, ali salonlarda nümayiş etdirilən sənət əsərləri rəssamı tanıdır, məşhurlaşdırır. İngiltərə, Fransa, İtaliya, Yaponiya, Avstriya, Belçika, Suriya, Livan və s. ölkələrdə, hətta fərdi sərgiləri təşkil olunan (1964) Şri-Lanka və Kubada belə tanınan Maral xanım artıq özünü sənətkar kimi təsdiqləyir. 1957-ci ildə qrafika rəssamlarının Londonda təşkil edilmiş sərgisində müvəffəqiyyətlə iştirak edən Maral xanımın adı Londonda nəşr olunan qrafik rəssamlardan bəhs edən kitaba düşmüşdür.

Maral Rəhmamzadənin əsərləri 1965-ci ildə Dövlət mükafatına layiq görülmüş, rəssam "Əmək bayrağı" və "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Yaranıb sərvə münasib qədü qamətdə Maral,
Yaşayıb eşqi ilə rəssam əlamətdə Maral.

Yaradıb huri təki Azəribaycan qadının,
Qaldırıb göylərə sənətdə və qiymətdə Maral.

İlk qadın rəssamıdır Azəribaycanımızın
Ki, yayılmış sorağı sənətə xidmətdə, Maral.

Sərf edib ömrünü rənglər, boyalar aləminə,
Axtarıb bəxtini daim belə zəhmətdə Maral.

Çəkdiyi mənzərələr bakirəlik rəmzi olub,
Boyalar aləmini göstərib ismətdə Maral.

Xəlqimin Reyhanı var, İzzəti, Elmirası var,
Deməyək ki, yaranıb təkcə bu qismətdə Maral.

Sona, arzumdu ki, daim bu Vətən torpağımız
Elə qızlar yetirə, sənətü hikmətdə Maral.

* * *

Nəhayət növbə kimyaçılarımıza çatdı, onlar haqqında da qısa məlumat verdik: "Azərbaycan qadınları elmin texniki sahələrində də nailiyyətlərilə daim diqqət mərkəzində olmuşlar. Fizika, riyaziyyat, kimya, texnologiya sahələrində də qazanılan uğurların bir hissəsi dəyanətli qadınlarımızın payına düşür: Zərifə Əliyarova, Zərifə İskəndərzadə, Elmira Ramazanova, Fəzilə Səmədova, Anaxanım Xanlarova, Azadə Hüseynova, Püstəxanım Pzazadə, Validə Yusifova, Gövhər Zeynalova və başqa adlarını çəkə bilmədiyimiz xanımlar. Tibb sahəsində olduğu kimi texniki sahədə də say çoxluğunu nəzərə alıb üç xanım alimimizə yer vermişik.





## İZZƏT ORUCOVA

İlkin sırada sizə akademik İzzət xanımı təqdim etmək istəyirik. İzzət Mirzağa qızı Orucova 1909-cu il, sentyabrın 16-da Bakıda anadan olmuşdur. 1962-ci ildə texnika elmləri doktoru və professor adı almış, 1967-ci ildə Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, 1970-ci ildə Dövlət mükafatına layiq görülmüşdür. 1932-ci ildən 1959-cu ilə kimi Azərbaycan Neft Emalı Tədqiqat İnstitutunda çalışmış, 1959-1967-ci illərdə həmin institutun əsasında yaradılmış Neft-Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri olmuş, 1967-1971-ci illərdə Qeyri-üzvi və Fiziki-kimya İnstitutunun direktoru vəzifəsində işləmişdir. 1971-ci ildən ömrünün sonuna kimi Aşqarlar Kimyası İnstitutunda şöbə müdiri olmuşdur. 1970-ci ildə SSRİ–ADR Dostluq Cəmiyyətinin Azərbaycan şöbəsinin üzvü seçilmişdir. Mendeleyev adına Ümumittifaq Kimyaçılar Cəmiyyətinin üzvü olan İzzət xanım bir çox əsərlərin, ixtiraların və səmərələşdirici təkliflərin müəllifidir.

İzzət xanımı həm də gözəl kinoaktrisa kimi tanıyırlar. Onun 1929-cu ildə yaratdığı "Sevil", 1936-cı ildə yaratdığı "Almaz" obrazları hələ də yaddaşlardan silinməmişdir.

Adətdi ki, insan sevilər xoş əməl ilə.
Lazımdı görə hər işini ta düz əl ilə.

Özül boş olarsa, yıxılar hər tikilən ev,
Gər arif isən, tik onu möhkəm təməl ilə.

Hər iş belədir, əvvəli məqsədsiz olarsa,
Hər cür eləsən də bitəcək bir xələl ilə.

Allah tərəfi insana qismətdisə şöhrət,
Lazım degi çatsın ona cəngü cədəl ilə.

Həm elmi sevən, həm də sənət aşiqi İzzət
Hörmət tapıb Almaz və Sevil tək gözəl ilə.

İzzət xanımın izzətini saxlayır ellər,
Bildirdi Sona rəğbətini bir qəzəl ilə.

İzzət xanım haqqında Dərin Neft-Qaz Yataqları İnstitutunun böyük elmi işçisi, elmlər namizədi Şəfiqə xanım Əliyeva danışmalıydı, amma vaxt dar olduğundan, mənim məlumatımı qənaətbəxş hesab elədilər. Ona görə də Sabir Gəncəlinin "Hər sətirdə bir tarix..." kitabından İzzət xanım haqqında bəzi məlumatları da bura əlavə etməyi məsləhət bildim: "İzzət xanım Azərbaycan mədəniyyəti tarixinə həm görkəmli kimyaçı, həm də ekranda azərbaycanlı qadın obrazını yaratmış ilk kinoaktrisa kimi daxil olmuşdur.

O, Bakı şəhərində bağban ailəsində dünyaya göz açmış, ilk təhsilini Hüseyn Cavid adına ikinci dərəcəli 16 nömrəli qız məktəbində, ali təhsilini isə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun neft texnologiyası fakültəsində almışdır (1927-1932). O zaman üçün bu, çoxlarına qeyri-adi görünmüşdü, azərbaycanlı qızı mühəndis!

Bu vaxt onun həyatında daha qeyri-adi bir hadisə baş verdi. Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlı gənc İzzəti kinostudiyaya dəvət edib, "Sevil" filmində Sevil obrazını oynamağı təklif etdi. Necə də çətin bir iş idi bu. Mövhumatın hələ güclü vaxtında bu, ciddi, qorxulu addım olardı. İzzət xanım ilk azərbaycanlı qız idi ki, bu sahədə addım atmış, Sevilin miskin həyatını və mübarizəsini ekranda canlı boyalarla əks etdirmiş, yaddaqalan bir obraz yaratmışdır. O, "Almaz" pyesində də Almaz rolunda çıxış etmişdir. Lakin İzzət xanımın ürəyindən başqa hisslər, başqa arzular keçirdi.

Yeni gəncliyin qurub-yaratmaq amalını özündə yaşadan İzzət xanım institutu qurtaran kimi elm aləminə üz tutdu. O, Azərbaycan neft emalı üzrə Elmi Tədqiqat İnstitutunda elmi fəaliyyətinə laborantlıqdan başladı, neft kimyasının möcüzələrini üzə çıxarmaq üçün axtarışlar apardı.

Müasir neft kimyasının ən mühüm problemlərindən olan





neft yağlarının alınması texnologiyası və istehsalı sahəsindəki tədqiqatları, kəşfləri onun həyatına sevinc, fərəh gətirdi. Yazdığı 200-dən artıq elmi əsəri, ixtiraları bu istedadlı qadına şöhrət qazandırdı. Səsi Kanadada, Almaniyada, Macarıstanda, Portuqaliyada sürtgü yağları və aşqarlara dair keçirilən simpoziumlardan eşidildi..."

## *NAİBƏ MUSAYEVA*

Məclisimizdə haqqında söhbət açacağımız qadınlardan biri də Naibə xanım idi. Lakin tədbirin vaxtını yanlış başa düşdüyündən məclisə gələ bilməmişdi. Qardaşı Şahim Fazildən ssenari üçün aldığımız qısa məlumatı burda verməyi lazım bildik: "Naibə Fazil qızı Musayeva 1938-ci ildə Quba şəhərində həyata göz açmışdır. Orta məktəbi qızıl medalla bitirib, Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra elm yolunu tutmuş, əvvəl namizədlik, sonra doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə edib, elmi dərəcə, daha sonra professor adı almışdır. Kimya sahəsində görkəmli tədqiqatları vardır. Onlarla elmi məqalənin müəllifidir. Məqalələri bir çox xarici ölkələrdə elmi orqanlarda çap olunmuşdur. Rus, ingilis və fransız dillərini mükəmməl bilir. Hal-hazırda Bakı Dövlət Universitetində ingilis dilində mühazirələr oxuyur. Ali Attestasiya Komissiyasında şöbə müdiri vəzifəsində çalışır".

## *MİNİRƏ AĞAHÜSEYNOVA*

Dəvətnamədə adı olan qadınlardan biri də Minirə xanım idi. Onun haqqında o qədər söz eşitmişdim ki. Elə bilirdim ki, qarşıma yaşı yetmişə yaxın bir xanım çıxacaq. Rastlaşanda təəccübümü gizlətmədim də. Əlli yaş üçün bu qədər nailiyyət. Minirə xanımın uğurlarını yaşı ilə müqayisədə götürəndə bir az heyrətləndim...

Məclisdə Minirə xanımı elə tanıdığım kimi təqdim etməyə çalışdım, amma titulları o qədər çox idi ki, özüm də əhatəli danışa bildiyimə inana bilmirəm: "Əziz dostlar, sizə daha bir kimyaçı-texnoloq ixtisaslı xanımımızı təqdim edirik. Minirə Məmmədəli qızı Ağahüseynova 1949-cu il, martın 26-da Bakıda ziyalı ailəsində dünyaya gəlib. Azərbaycan Dövlət Neft Akademiyasını fərqlənmə diplomu ilə bitirib. 1977-ci ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyası müdafiə edib, 1991-ci ildə professor adı alıb. 1993-cü ildən Neft Akademiyasında "Ümumi və qeyri-üzvi kimya kafedrasının müdiri vəzifəsində çalışır. Minirə xanım iyirmidən artıq Beynəlxalq simpozium, konfrans və konqreslərin iştirakçısı olmuş, oralarda gözəl məruzələrlə çıxış etmişdir. Əsərləri ABŞ, Hollandiya, Yaponiya, İsveçrə, Almaniya, İngiltərə, Belçika, Türkiyə, İtaliya və s. ölkələrin elmi mətbuat orqanlarında çap olunmuşdur. 220-dən artıq elmi məqalənin, dərslik və dərs vəsaitlərinin müəllifidir. Minirə xanım bir neçə elmi şuranın üzvü olmuşdur, onun rəhbərliyi altında ona yaxın elmi dərəcəli alim hazırlanmışdır.

Minirə Ağahüseynova 1995-ci ildə Nyu-York EA-nın həqiqi üzvü və 1997-ci ildə Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki seçilmişdir. Beynəlxalq Bioqrafik Mərkəz (Kembric, İngiltərə) Minirə xanıma 1997-98-ci illərdə "İlin Beynəlxalq qadını" fəxri adını vermiş və Minirə xanım "İntellektuallar arasında kim kimdir"in XIII nəşrinə daxil edilməyə layiq görülmüşdür.

Dolanıb kürreyi-ərzi, olub hər yerdə Minirə!
Tanınıb, həm tanıdıb yurdunu hər yerdə Minirə!

Neçə ildir ki, cahan içrə alır ən uca adlar,
Qazanıb hörməti çox xarici kişvərdə Minirə.

Hara dəvət ola, ilkin sayılar izzətü cahı,
Yazılar layiq olan bir yerə dəftərdə Minirə.





Bu qədər şövq ilə atəş ki, sənə bəxş olunub,
Belə atəş görünüb təkcə Cəməndərdə, Minirə!

Layiqin vardı ki, qismət eləyibdir sənə Tanrım,
Verir əlbəttə ki, mərdanəliyi mərdə, Minirə.

Budur, ondan dəxi sən barədə bir istəyimiz var:
Edə xoşbəxt səni, heç salmaya bir dərdə, Minirə.

Sona bir baxdı təvəllüd yaşına, bir işinə,
Dedi: çox az olar insan sənə bənzərdə, Minirə!

Məclisdə Minirə xanımın iş yoldaşlarından Azərbaycan Dövlət neft Akademiyasının professoru Həmid Həmidzadə, dosentlərdən Tahirə Hüseynova və Hamlet Əsgərov iştirak edirdi. Öz razılıqları ilə onlardan birinə söz verdik. Professor Həmid Həmidzadə dedi: "Dünyasını dəyişmiş qadınlarımızın anma mərasimini, həm də elmin müxtəlif sahələrində hazırda uğurla çalışan qadınlarımızı bura dəvət eləyib, 8 MART Beynəlxalq qadınlar bayramı münasibəti ilə təbrik eləyib, onların şəninə belə gözəl ziyafət təşkil edib, bir daha minnətdarıq Hacı İntiqama! Hacı, o ki, qaldı Minirə xanıma, haqqında xanım o qədər danışdı ki, bütün Minirə xanımın bioqrafiyasını oxudu, elə bilirəm ki, mənə siz deyən elə bir şey qalmır. Ancaq onu deyim ki, Minirə xanım 1993-cü ildən bizim hazırda çalışdığımız ümumi kimya kafedrasının müdiridir. Cavan olmağına baxmayraq, çox gözəl, qabiliyyətli, təşkilatçılıq qabiliyyətinə malik xanımdır. Minirə xanımla işləmək böyük səadət, böyük xoşbəxtlikdir. Minirə xanım qayğıkeş insan, yüksək erudisiyalı qabiliyyətli insandır. Minirə xanım düzdür indi kafedra müdiridir, ancaq Minirə xanım eridusiyasıyla ən azı nazir olmalıdır və inşaallah Minirə xanımı daha yüksək postlar gözləyir. Minirə xanım həm də gözəl anadır. Gözəl nənədir. Allah saxlasın, gözəl nəvələri var. Və gözəl rəhbərdir. Minirə xanıma cansağlığı arzu eləyirik və mən bu çıxışımı bir həvəskar şair... Arif müəllim həmişə mənə şair deyir, amma mən şair deyiləm, həvəskaram.

Qadınlarımızın belə gözəl günündə qadınlarımıza həsr olunmuş şeir deməsəm olmaz:

Dərya eşqim, dağ möhnətim,
Sel harayım, qadın payım.
Nə olsun ki, zəif məxluq,
Zərif məxluq söylənilib adıma!
Mən ki, Vətən çırağının oduyam,
Vətən torpağının,
Vətən dilinin adıyam.
Canımdan can verirəm,
Qanımdan qan verirəm.
Mən bəşəriyyətə
Yer üzünün əşrəfi
İnsan verirəm.
Dərya eşqim, sel harayım!
Budur mənim qadın payım".

Həmid müəllim şeirini bitirib çıxışına davam edir, Hüseyn Arif və Bəxtiyar Vahabzadə poeziyasından nümunələr deyir və çıxışını yenə də öz şeiri ilə yekunlaşdırır.

* * *

Növbəti çıxışçını təqdim etmək istəyirdim ki, Hacı İntiqam dedi: "Sona Xəyal, bir dəqiqə dayanın!... Kimə söz verirsiz, kim çıxış edir, hamı mənə "çox sağ ol" deyir. Mən sizə minnətdaram, alimlərə minnətdaram. Siz alimlərə, qadınlara minnətdaram. Siz sağ olun! Mən sizdən çox xahiş edirəm ki, məni tərifləməyin. Sizsiz buranın yaraşığı. Siz olmasaydız, mən bunu düzəldə bilməzdim. Xahiş edirəm , məni tərifləməyin"...

Hacı İntiqamın bu təvazökar çıxışını bitirmək üçün dedim: "Elə buna görə də sizə "çox sağ ol" deyirik". Yerdən qarışıq səslər eşidildi: "Sizin də layiqiniz var ki, tərifləyirik", "Siz də sağ olun ki, alimləri bir yerə yığmısınız" və s. Hacı İntiqamın çıxışını





alqışlar altında bitirdik və söz şair Şövkət Hicrana verildi. O da məclisə öz münasibətini bildirdi, Hacı İntiqama təşəkkür elədi, qadın alimlərimizin əməyini qiymətləndirdi və çıxışını bayram təbriki ilə bitirdi.

Dəvətnamədəki siyahıya ədəbiyyatçı daxil etməsək də, məclisin əksəriyyətini ədəbiyyatçılar təşkil edirdi. İstər Nizami adına Ədəbiyyat İnstitutunun, istərsə də Füzuli adına Əlyazmalar İnstitutunun xeyli əməkdaşı məclisdə idi. Bütün ədəbiyyatçılar adından söz demək üçün Əlyazmalar İnstitutunun əməkdaşı elmlər doktoru Cənnət xanım Nağıyevanı dəvət etdik. O da Hacı İntiqamın tərifəlayiq olduğunu vurğuladı, onun gördüyü işlərin təqdirəlayiq olduğunu bildirdi və belə bir təntənəli məclis keçirib, qadın alimləri qiymətləndirdiyinə görə ona minnətdarlıq etdi. Söz yenə də musiqiyə verildi.

Artıq gecə saat 23 radələri idi. Beş saata yaxın davam edən məclisdə sanki bir an keçmişdi. İştirakçılar yorulmaq bilmirdilər. Ssenaridən kənar çıxış etmək istəyən alimlər, şeir demək istəyən şairlər var idi. Amma Zəhra xanım sabahkı toplantıya hazırlaşacaqlarını bildirib getmək üçün icazə istədi. Digər xanımlar da artıq gec olduğunu xatırlatdılar. Beləliklə, dəvətnamədə adı keçən qadınlarımızın heç biri qalmadı. Amma məclis nəinki davam elədi, hətta bir az da "qızışdı". Əvvəlki sakitlikdən, təmkindən əsər-əlamət qalmadı. Demokratiyanı anarxiya kimi başa düşənlər qəribə, təzadlı fikirlərlə qərəzli çıxışlar etdilər. Hətta bəzi qadınları təhqir etməkdən belə çəkinmədilər və bu çıxışları "bəh-bəh"lə qarşılayanlar da oldu, bu hala etiraz edənlər də. Bir anlıq "Ara qarışıb, məzhəb itdi". Amma biz ümumi Azərbaycan qadınının mənafeyini düşünüb, onların çıxışlarını burada verməyi lazım bilmirik. Bircə o yadımdadır ki, əsəbiləşdiyimdən aparıcılıq postumu tərk elədim və bayaqdan bunu gözləyən Kərəm Kürqıraxlı estafeti əlinə aldı. Onu bilirəm ki, şairlərdən Həkim Qərvəndi anaya həsr olunmuş bir dördlük və bir də uzun bir şeir dedi. Həmin dördlüyü burada veririk:

Bu sonsuz, bu qoca dünyada gərək,
İnsan olan bir müqəddəs ad ana!
Deyirəm İlahi, Tanrı yaradan
O müqəddəs insan, o pak ad, - Ana!

Gülnigar Rəhimli də bugünkü məclisə olduqca uzun bir şeir həsr eləmişdi, həmin şeir "Yenə yada salır Hacı İntiqam Ölünü, dirini, hurü pərini" misraları ilə başlayır və şeirdə, bugünkü məclisdə haqqında söhbət gedən bütün xanımlar mədh olunur, şeir belə yekunlaşır:

Gülnigar, yaz, dolsun söz dəftərimiz,
Qadın kainatdır, kişi həyatdır.
Sağ olsun yaradıb, quran analar,
Körpə beşiyindən məzara kimi
Başımız üstündə duran analar.

Söz "Şəhlanın sevinci"(1995) və "Həqiqətim" (1999) kitablarının müəllifi 14 yaşlı məktəbli Şahin Kamilə verildi və o "Azərbaycan qadınları" şeirini dedi:







Qu gölünün sonasıdır,
Hər bir dərdə yansıdır,
Qəhrəmanlar anasıdır
Azərbaycan qadınları.

Şirin sözlü, söhbətlidir,
Abırlıdır, ismətlidir.
Nigar, Həcər qeyrətlidir
Azərbaycan qadınları.

Xalçaların ilməsidir,
Sevənlərin nəğməsidir.
"Ana vətən" kəlməsidir
Azərbaycan qadınları.

Şair, alim yarandılar,
Ölkələri dolandılar.
Yaddaşlarda qalandılar
Azərbaycan qadınları.

Alqışlardan sonra söz Tarix İnstitutunun əməkdaşı Elməddin Əlibəyzadəyə verildi. Elməddin müəllim bu məclisin ən uzun çıxışını elədi. Qədim tariximizdən başladı, bu tarixin qoruyub saxladığı detallardan və tarixdə adı qalan Tomris anadan, "Dədə Qorqud"dakı qadınlardan, keçmiş türklüyümüzdən və s.-dən danışdı. Elməddin müəllimin çıxışı bu məclisdə səslənən ən geniş, əhatəli çıxış idi, amma ssenaridən kənar olduğu üçün onu burada vermək imkanımız olmadı.

Məclisdə bir ziyalı da iştirak edirdi, amma mən onu tanımırdım. Sadəcə ikinci dəfə aparıcılıq kürsüsünə qaytarılanda, Arif Buzovnalı dedi ki, Asif Rüstəmliyə də söz verərsən. Soruşdum ki, kimdir Asif Rüstəmli? Dedi ki, "Ozan" nəşriyyatının direktorudur, həm də alimdir, İncəsənət Universitetində dərs deyir. Mən də baxdım, gördüm ki, cavan olmasına baxmayaraq, doğrudan da üzündə işıq var, nəsə mərifətli adama oxşayır. Burada bir haşiyə çıxım,–nədənsə, hələ uşaqlıqdan

insanları ancaq üzündə, ya baxışında–gözündə gördüyüm, bəlkə də tapdığım nurla (çünki mən həmişə insanlarda onu axtarıram) fərqləndirirəm. Mənim ağlım kəsən vaxtlar bəlkə də dünyanın get-gedə çirkinləşən dövrünə düşdüyündənmi, ya sadəcə böyüdükcə ağı qaradan daha yaxşı seçə bildiyimdənmi idi, bilmirəm, nədənsə nurlu insanların çox az olan zamanına təsadüf edib. Amma deyim ki, beləl借rini tapmamışam, yox, hardasa, orta məktəbdəmi, ya işlədiyim idarədəmi, ya ali məktəbdəmi, ya səfərlər zamanı rastlaşdığım insanlar arasındamı, hardasa, hardasa tapmışam və həmişə Allaha şükür eləmişəm ki, hələ belə insanlar var və hələ yaşamağa dəyər. Bəzən seçdiyim insanların üzündə, gözündə tapdığım nurun get-gedə öləzidiyinin şahidi də olmuşam. Amma yenə də ümüdümü itirməmişəm. Məsumluğunu axıra kimi qoruya bilməyib, itirən adamlar görəsən bir an da olsa düşünüblər ki, nə böyüklükdə xəzinə itirirlər? Hansı əsərdəsə oxumuşam, adı yadımda deyil. Bir jurnalist gərək ki, professorla görüşməli olur və onun çöhrəsinə baxarkən, yazıçı onun belə düşündüyünü yazır: "...Doğrudan da körpə məsumluğunu ömrü boyu özündə qoruyub saxlaya bilmək insanda ən böyük zənginlik nişanəsidir". Orta məktəb vaxtında həmişə oxuduğum kitablarda rast gəldiyim hikmətli sözləri ayrıca bir dəftərə qeyd edərdim. Amma müəllifi olan sözləri də xalq deyimləri ilə birlikdə yazmışam. Müəlliflərin adını qeyd etməmişəm, çünki, mənə həmişə elə gəlir ki, hikmətli sözlər bir adama məxsus ola bilməz, onlar da bir çeşmənin,- peyğəmbərlərin və imamların hikmətindən götürülmüşdür... Mətləbdən uzaqlaşdım deyəsən... Hə, üzündə, gözündə məsumluq olan insanlardan danışırdım. Kimlər yazılıb siyahıma?... Orta məktəbdə bir fransız dili müəllimim var idi, İda müəllimə. Hansı millətdən idi, bilmirəm, amma o qədər sadə, eyni zamanda ciddi, təmkinli insan idi, lap azərbaycanlı qadınlar kimi geyinirdi, bəlkə daha artıq. Sonra bizim xəstəxanada şöbə müdirimiz var idi. Məndən əvvəl laboratoriyaya rəhbərlik edirdi. Adi Firəngiz xanım idi, o





qədər məsum, o qədər saf, təmiz idi ki, adam ona baxanda gözünü çəkmək istəmirdi. Daha sonra universitetdə Bəxtiyar Məmmədzadə, sonra Füzuli məclisində Hacı Mail, daha sonra diplom rəhbərim Samət Əlizadə... Bəlkə hələ də bu siyahıya kimlərsə yazılacaq. Hərdən məclisdə oturub Mail müəllimə baxanda üzündə qəribə ifadə yaranardı, sonra fikrə gedərdi. Bir dəfə dedi ki, Sona, sən mənə baxanda, bilirsən nələr düşür yadıma? Bir vaxtlar mən də məclislərdə qoca nurani kişilər söhbət edəndə, onlara baxar və həmişə düşünərdim ki, İlahi, bu qədər təmiz, saf insanlar olar? Eh, Sona, indi daha o cür adamlar yoxdur. Mən də belə... İndi sən məndə nə tapmısan, bilmirəm, amma mən onlara çata bilmərəm...Bəlkə də Mail müəllim düz deyirdi, get-gedə saflıq azalır. Amma indi də təmiz adamlar var, indi də nurlu, məsum çöhrələr, təmiz, saf baxışlar var. Necə deyərlər, dünya xali deyil. Düzdür, indiki zamanda bəzən heç körpələrin üzündə də məsumluq tapmaq olmur, nəinki yaşlı adamdan bunu ummaq. Amma əgər yaşlı insan o məsumluğu sona qədər qoruya bilibsə, deməli, hələ yaşamağa dəyər. Allah bu təmizliyi, bu paklığı bizim dünyamıza çox görməsin...

Qayıdaq yenə Asif Rüstəmliyə. Üzündə, təbəssümündə məsumluğu hələ ki, saxlaya bilən və saxlyacağına ümüd bəslədiyim Asif müəllimə. Mən onu sonradan bir qədər də yaxından tanıdım. Bacım oğlunun kitabını "Ozan" nəşriyyatında çap etdirməli oldum, onunla dəfələrlə müxtəlif mövzuda söhbətlərimiz oldu. Ümumiyyətlə, Asif müəllim çox gözəl poliqrafdır. Mən bir dəfə kitablardan söz düşəndə, hətta münasib söz tapa bilməyib, belə bir cümlə işlətmişdim: "Asif müəllimin çap elədiyi kitablar da özünə oxşayır". Asif müəllim bunu lağ kimi qəbul eləmək istədi, amma mən həqiqi deyirdim. Asif müəllimin danışığı, insanlara münasibəti, davranışı necədirsə, çap elədiyi kitablar da o cür səliqəli, təmkinlidir və elə bil ki, Asif müəllimin üzündəki nur ilə kitablardakı parıltı arasında da nəsə bir əlaqə var. Bəlkə də onun həmişə daha yaxşı işlər görmək

istəyindən, bu gün dünənkindən, sabah bugünkündən daha gözəl yaratmaq şövqündən irəli gələn bir hissdir. Nə isə, bizim Asif müəllim belə bir adamdır. Məclisdə bilmədiyimdən Asif müəllimi professor kimi təqdim etmişdim və o ilkin buna etirazını bildirdi: "Çox sağ olun, amma mən professor deyiləm, professor Elməddin müəllim idi. Ədəbiyyat İnstitutunun, mən də sıravi bir işçisiyəm. Bura toplaşan qadınlarımızın, analarımızın hamısını öz şəxsi bayramlarıyla bahəm, həm də Novruz bayramı münasibətilə təbrik eləyirəm, təbriklərə qoşuluram. Ancaq o sözün özü də mənə elə təkrardır. Təkrar da elə bir gözəllikdir. Qadağan olunmuş, elə bu məclis üçün qadağan olunmuş mövzudan danışmaq istəyirəm mən. Bu, Hacı İntiqamla bağlı məsələdir. Yəni, Hacı məndən inciməsin. Mən ilk dəfə deyil ki, onun tədbirində oluram, şəxsi dəvətilə gəlmişəm və bu mövzuda açığın deyim ki, mənə Tehranda... 3-4 il bundan əvvəl Tehranda olarkən, professor Tofiq Hacıyev mənə dedi ki, olmusan orda. Dedim yox. Filan, filan tədbirdə, yox. Açığın deyim ki, bir az da utandım, xəcalət çəkdim ki, necə yəni, akademiyada işləyəsən və yaxud ziyalı olasan, müəyyən tanıdıqların adam ola, Azərbaycanın klassik ədəbiyyatımızın nəhəng nümayəndələrinin yubileyləri, ədəbi-bədii gecələri Şüvəlanda, Hacı İntiqam keçirə və sən orada iştirak etməyəsən. Bunu eşidəndən sonra, deməli, günlərin bir günü Xətainin 510 illik yubileyi münasibətilə, onun elə adını daşıyan payonda tədbir keçirilirdi, orda məni Hacı Soltan tanış elədi. Adını eşitdiyim və özünü ilk dəfə gördüyüm hacıyla mən orada tanış oldum və Bakının o haylı-küylü, səsli-soraqlı o tünlüyündən bu Şüvəlanda bu genişlikdə, bu gözəl, yenicə bünövrəsi qoyulmuş gözəl mənzilində... Açığını deyim ki, mən həddindən artıq razı qaldım. Xoşhal oldum, feyzyab oldum və bu otağından da bəlkə bir neçə dəfə, bəlkə ölçüyəgəlməz dərəcədə onun geniş qəlbinə, bu qədər adamın, sənət adamlarının, elm adamlarının toplanması məni, açığını deyim heyran qoyur. Hacı unudulmaqda olan və yaxud zəifləməkdə olan bir ənənə-





nin, mənə elə gəlir ki, yeganə davamçısıdır. O, Azərbaycana ən qədim dövrlərdən xas olan qonaqpərvərlik ənənəsini, mən bunu xeyriyyəçilik yox, qonaqpərvərlik adlandırardım, özü də nəhəng qonaqpərvərlik. Uzun illər bu ipək yolu Azərbaycandan ən qədim dövrdən keçdiyi üçün xarici səyyahlar həddindən artıq çox olub Azərbaycanda. Azərbaycanın qonaqpərvərliyi haqqında onların səyahətnamələrində, xatirələrində rast gəlinir. Elə Aleksandr Dümanın və digərlərinin, onlarla italyan və digər ölkə səyyahlarının, Omar Kapolu və digərlərinin... Məsələn, Şamaxıda, Bakıda olan o Mahmud ağa kimi digər kişilərin qonaqpərvərliyindən, musiqili, ədəbi-bədii gecə keçirmələrindən. Biz oxuyanda fəxr eləyirik, bizim belə böyük kişilərimiz olub, şəxsiyyətlərimiz olub, el ağsaqqalları olub və həmin ənənəni Hacı İntiqam davam etdirir. (yerdən "sağ olsun" sədaları eşidilir). Bugünkü məclisimiz, mən deyərdim ki, elə bil elmi simpoziumdur: "Azərbaycan qadını və müasirlik". Gəlin elə adını da belə qoyaq. Qoy lentə yazılsın. Bu simpoziumda elm, sənət adamlarına son dərəcə maraqlı, özlərinə məxsus fikirlər söylədilər. Doqquz bal gücündə dalğaya da bənzədi bu məclisimiz, musiqiyə də döndü, ondan sonra ürəklərə, beyinlərə həkk olunan ən yeni fikirlərə də çevrildi. Bu, elə gözəllik bundadır da. Əgər sakitcə hamı gəlsəydi, burda yeyib-içməyə, bunun nə ləzzəti olardı. Və əgər saat 12-yə yaxınlaşır, biz hamımız burdayıqsa və bir-birimizi dinləyiriksə, gözəl məclisimizin də adı olursa "Azərbaycan qadını", bundan gözəl nə var. Burada yanvarın birində keçirilən məclisdə Arif Buzovnalı bir şeirini oxudu, həddindən artıq heyran oldum. Gözəl məclisə son dərəcə gözəl şeir yazıb və indi bu "Ozan" nəşriyyatının adını çəkdilər, Arif Buzovnalının yenicə,–Novruz bayramı qabağı təqdim edəcəyik ona,–kitabını hazırlayırıq. Son dərəcə gözəl, o cümlədən Hacı İntiqama həsr etdiyi şeir də orada görkəmli, gözəl yer tutur. Mən bu söhbətimin, təəssüratımın sonunda, üzr istəyirəm, hacı inciməsin məndən. Hacı İntiqama mən öz adımdan təşəkkür edirəm ki, bu qədər fikir, sənət

adamlarını bir yerə yığıb, gözəl bir məclis təşkil eləyib. Unudulmaz bir gecəyə çevirib və bu adamların hər biri, dəxli yoxdur sabah onlar Tehranda olsun, Vaşinqtonda olsun, harda olursa-olsun, mənə elə gəlir ki, bir-birindən soruşacaqlar: "Hacı İntiqamın evində məclisdə iştirak etmisən?" Əgər desə yox, mənim kimi,–necə ki, Tehranda mən bir az utandım,–bax, utanacaqlar. Hacı, Allah sizin işığınızı, nurunuzu heç bir zaman əksiltməsin, Allah sizə kömək olsun. Çox sağ olun. Xalqımız bu qonaqpərvərlik ənənəsini bax, beləcə yaşadır. Sağ olun".

Alqışlardan sonra sözü Qiymət Məhərrəmliyə vermək istəyirdim ki, Elməddin müəllim söz istədi və "Hacı, dünyada alimin kitabdan qiymətli heç nəyi yoxdur. Bu kitab Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi, islamaqədərki dövr tariximizdir. Mənim dediklərimin bir hissəsi burdan gəlir. On min illik tariximizdir. Əski tariximizdir. Heç kəsin ləkələyə bilməyəcəyi tariximizdir..." deyib, "Hacı, bu kitab adi kitab deyil və hər kəsə verilmir. Millətin ləyaqətli, əsil zilalısı olan kəslərə bəxşiş edilir. Xoş arzu, xoş niyyətlə müəllif" sözləri yazılmış avtoqrafını da oxuyaraq, əlindəki kitabı Hacı İntiqama təqdim etdi.

Alqışlar altında Hacı İntiqam təşəkkürünü bildirdi və dedi: "Mənim məktəbdə bir müəllimim olub. Ədəbiyyat müəllimim. O yazırdıq e, isim, mübtəda, mürəkkəb isim, cins. Nə bilim, dedi ki, oğlum, ali savadın olmasa da, ali düşüncən olsun. Baxıb görürəm ki, sənin ali düşüncən var. İnqlab Əlizadə mənim haqqımda kitab yazıb, orada belənçignə söz gedir. Mənim ali savadım olmasa da, ali düşüncəm var. Mən bunları özümçün yox, süzünçün eləyirəm. O günlər olsun ki, kişi akademiklər, alim, professorlarçün burda məclis keçirdim. Onun içərisində süzün də adıvuz var, Vaqif Aslanovun da adı var. Tofiq Hacıyevin də adı var. Beş-altı danə, onu da süz deyərsüz, kimləri istəsöz. Ancaq Allah qismət eləsün. Ölməyim, sağ qalım, mart ayından sonra, bu məhərrəmlik qurtarandan sonra generallarçün bir məclis eləmək istəyirəm".

Elməddin müəllim "Sizin bu keyfiyyətiniz, bu arzunuz da





adi arzu deyil, Allah vergisidir" deyəndə Hacı İntiqam bir qədər də ürəkləndi və içindəkiləri dilinə gətirdi: "İndi Hacı Soltan sizə deyər... 28 yanvarda gəldilər, keçən məclisin kasetini verdilər, getdilər. İki gündən sonra, yanvarın 30-da evdə heç kəs yox idi. Tək qalmışdım evdə, kitab oxuyurdum. Bir də gördüm boğurlar məni. Bu, həqiqətən olan şeydir. Boğuluram, boğuluram, nöş boğuluram, kim boğur məni? Çıxdım bayıra, gördüm heç kəs yoxdur. Girdim içəri, gördüm yenə də boğurlar məni. Deyirəm, ay Allah, sənə axı mən inanıram. Nöş boğursan məni? Gənə də boğurlar, gənə də boğurlar. Dedim nə istəyirsüz məndən? Nöş boğursuz məni? Bağıram, görürəm heç kəs yoxdur. Bir də gördüm ki, səs gəldi, ya da nəsə dedilər mənə, bəs qadınların məclisi gəlir, heç sən tərpənmirsən? Dedim, imkan yoxdur. Şərait yoxdur...

...İndi bir nəfər. Beş nəfər. On nəfər. Burda həqiqətən bu məclisi bilənlər getməyib, bu saat burada oturanlardır. Gəlib-gedənlər də bildi, gəlməyənlər də bildi. Ancaq həqiqətən bizim qadınlara: ölənlərə, ya dirilərə qiyməti burdakılar verdi və ürəklə gəldi, onlara görə gəldi, mənə görə gəlmədi. Onlar da gəldi. Getdi...

...İndi intəhası budur ki, dedim ki. Eləyirəm, eləyirəm, eləyirəm, gördüm heç kim yoxdur. Buraxdılar məni, çıxdım bayıra, gördüm heç kim yoxdur. Ayın 3-də getdim Bəhruz müəllimin yanına, dedim ki, ay Bəhruz müəllim, hali-qəziyyə belə. İki nəfəri tapmışam,–Bəhruz müəllim burda qeyd elədi ki, bizim kənddəndirlər. Biri Seyidməmmədova Züleyxadır, bizim küçəmizdə olub, biri də Məşədi Əzizbəyovun qızı Püstəxanımdır,–iki nəfəri tapdım, qalanın da sən deginən mənə. Hansı ki, layiqi var,... mən bilmirəm də alimləri... bunlar da yazdılar verdilər. Sona Xəyal da çox kömək elədi, neçəsinin adını dedi. Hacı Soltan da neçəsinin adını dedi. Minnətdaram Hacı Soltana da, Sona Xəyala da... İndi bunlar mənim anam dögül, bacım dögül, qohumum dögül, tanımıram bunları. İndi mən istəyirəm ki, kişilərçün də eləyim. İndi burda deyirlər mənə ki, oğluvun toyu-

nu eləyəsən burda. Quran haqqı, egənəm mən oğlum üçün burda toy eləmək arzu eləyirəmsə, Allah onu mənə qismət eləməsün. (yerdən etirazlar eşidilir)... Yox, qulaq as e. Bu gün ki, mən ölsəm, onsuz da oğlumçün toy olcey də. Dəlixanada olanın oğluyçün də toy olur. Atası dəlixanadadu, oğluyçün toy olur..."

Nə isə axır-axırda bir şair tapmışdım, söz vermişdim, onu da qoymadılar çıxış eləməyə. Nəhayət, şeirlərində doğrudan da qiymətli sözlər işlədən, özünəməxsus deyimlərilə məclisdəki digər qadın şairlərdən fərqlənən Qiymət Məhərrəmliyə çıxış üçün imkan verildi. O dedi: "Müqəddimə ilə başlayım hər halda, başqaları kimi. Hacı İntiqam kimi xeyriyyəçilərimiz varsa, deməli, Azərbaycan xalqı hələ yaşayır. Ona çox sağ ol deyirəm, yadımda qalan şeirdən 2-3 bənd deyəcəyəm:

İşim yoxdu namərd ilə,
Nə iş görsəm comərd ilə,
Qəlb doludur min dərd ilə,
Ya rəbb, açım, ya açmayım?

Baş açmıram bu gərdişdən,
Gəlib keçdim neçə dişdən.
Öyrəndiyim bu vərdişdən,
Ya rəbb, qaçım, ya qaçmayım?

Haqsız haqlı çıxır indi,
Qəlb evimi yıxır indi.
Ruzi daşdan çıxır indi,
Ya rəbb, acım, ya acmayım?

Nur yox gözün qarasında,
Karvan yolun yarısında.
Ölüm göz-qaş arasında,
Ya rəbb, qucum, ya qucmayım?

Hər halda, hamımız ölüb gedəcəyik. Amma qalan belə gecələr olacaq. Allah ömür versin Hacı İntiqama. Sağ olun".





Alqışlardan sonra Cəmşid Türkel söz istəyir və çıxışını sözlə başlayıb şeirə keçir: "Mən birinci dəfədir, bu gün məclisdə tapılıram! Hacı İntiqamla bu gün tanış olmuşam. Dünən yox, srağagün Elməddin bəylə görüşdüm. Biz dostuq, yoldaşıq, Elməddin bəylə tez-tez görüşürük və mənə dedi ki, bir yerə gedəcəyik, sən mütləq mənimlə getməlisən və özü tanışlıq verdi, qiyabi tanışlıq və mən məmnuniyyətlə gəldim. Gəlməyimə çox şadam, çox məmnunam. Çox razıyam. Tanıdığım, tanımadığım adamlarla burada görüşdüm. Tanıdıqlarımla görüşdüm, tanımadıqlarımı da gördüm, tanıdım. Bu məclis müqəddəslik məclisidir. Çox böyük niyyət var burda. Çox böyük, gözəl, sağlam niyyət var burda. Hacı, sözün həqiqi mənasında, çox böyük daxili zənginlik göstərmişdir. Burda çox söhbətlər oldu. Yoruldu camaat. Mən çox danışmayacağam...

Yarınan az deyil hələ şeytana,
Müşküldür məluna iman olanda.
Ölkənin gəmisi düşür tufana,
Başçının könlündə duman olanda.

Aclığa, qıtlığa düçarsa Vətən,
Düşür insanlığın özü qiymətdən.
Söz aça bilərmi millət qeyrətdən
Yadlardan səxavət uman olanda.

Ölkədə yaranır gülünc tamaşa,
Müttəhim hakimlə kef çəkir qoşa.
Şərəfsiz ünsürlər dırmaşır başa,
Zirvədə rüşvətə güman olanda.

Tapdanır xırdalar, qudurur yekə,
Rüşvət qanunlaşır yuxarı silkə.
Dövlət iflic olur, dağılır ölkə
Əyriyə, caniyə aman olanda.

Talançı cənabın budur qayəsi,
Kütlənin nankoru qaldırır səsi.
Bəs başçı kim olur, onun dəstəsi
Elliklə talana cuman olanda?

Dostum, təsəlli ver Cümşüd Türkelə,
Söylə ki, cinayət gedəmməz belə.
El yağı qanını döndərər selə,
Zaman qana çəkən zaman olanda!

Çox sağ olun". (alqışlar)

* * *

Nəhayət, məclisi yekunlaşdırmaq qərarına gəldim və intizarda qalan sonuncu ruhu şad etmək üçün məclisdən üzr istədim: "Əziz dostlar, bizim bugünkü məclisimizdə kənarlanmalar çox oldu, ona görə də Züleyxa Seyidməmmədova haqqında biz heç söz demədik. Əgər icazə versəydiniz, onun da haqqında danışardıq!!!"

Bir an içində məclis yenə də əvvəlki sakit, təmkinli vəziyyətinə qayıtdı,- görünür bizdə ölülərə dirilərdən çox hörmət var,- mən də ssenariyə qayıtdım: "Ağlaya-ağlaya gülməyi, sevinməyi bacaran Azərbaycan xalqı bu gün bayram şənlikləri, təntənəli məclislər keçirsə də, öz faciələrini, müharibə şəraitində yaşadığını heç də unutmur. Ona görə də bugünkü məclisimizdə də yaddaşımızdan dərdlərimizə ayrılmış yeri qoparıb atmırıq, əksinə, onu daha da qranitləşdirmək üçün bu gün Azərbaycanın hərbçi qadınlarından da bəhs açmaq fikrindəyik.

## *ZÜLEYXA SEYİDMƏMMƏDOVA*

Biz çıxışımızın əvvəlində Vətənimizin tarixi şəxsiyyətlər kimi adı yaddaşlara həkk olunan qəhrəman qadınlarından bir neçəsini xatırlamışdıq. İndisə ilk təyyarəçi, hərbçi qadınlarımızdan biri Züleyxa Seyidməmmədova haqqında danışmaq istəyirik. Əlbəttə, müharibə illərində Züleyxa tək deyildi, onun Leyla Məmmədbəyova, Dürrə Məmmədova, Böyükxanım Mircavadova, Rəhilə Babayeva, Səkinə Bayramova, Sona Piriyeva, Nigar Şıxlinskaya kimi silahdaşları, hərbçi bacıları var idi...





Dəhdə qalmalıdır hər gələn insanın izi,
Necə gör bir yaşayır Şirinü Leylanın izi.

Yaradan nəqşini gər pozmasa bu dünyanın,
Sanma bir özgə qələmlə itə dünyanın izi.

Görmürük burda günahə batırıq, məhşərdə
Görünər gözlərə hər xırdaca nöqsanın izi.

Süni yolla yaranan göllərə bel bağlama çox,
Əvvəlində gərək onda ola dəryanın izi.

Çox vətənsizlər olub sahibi bir parçasının,
Amma hər yerdə qalıb Azəribaycanın izi.

Necə ağlar gözünü silmək olar yurdumuzun,
Hər dağında, dərəsində görünür qanın izi.

Hərbdə öndə uçub gəzdi vətən göylərini,
Bu günəycən yaşayır Yerdə Züleyxanın izi.

Ver təsəlli, Sona, xəlqə bu kiçik şerinlə,
Kəsilər torpağımızdan səhər ədnanın izi.

Züleyxa Seyidməmmədova haqqında bir neçə mənbədən məlumat almışıq. Amma bizim Əlyazmalar İnstitutunda, Fond 27. s/v 1541 şifrəli qovluqda onun 1954 tarixli, 20x 30 sm ölçülü 4 vərəq həcmində avtobioqrafi saxlanılır. Həmin əlyazmanı rus dilindən tərcümə edib burada verməyi daha məqsədəuyğun hesab elədik: "Züleyxa Həbib qızı Məmmədovanın tərcümeyi- halı.

Mən 1915 ci-il dekabrında Bakı şəhərində doğulmuşam. Atam Mirhəbib Əhməd oğlu inqilabdan əvvəl olduğu kimi

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da idarə və müəssəsələrdə hesabdar, mühasib və baş mühasib vəzifələrində xidmət etmişdir. Hal-hazırda o işləmir və qocalığa görə təqaüd alır. Anam Mina Əli qızı inqilaba qədər savadsız olmuş, ev işləri ilə məşğul olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra oxumuş və ali tibb təhsili almışdır. Hal-hazırda Əzizbəyov adına xəstəxanada həkim- ginekoloq işləyir və Sov.İKP-nin üzvüdür. Bacım Sima mühəndis-texnoloq ixtisası üzrə ali texniki təhsillidir, hal- hazırda Bakı şəhərində Keşlə rayon Partiya Komitəsində katib işləyir. Qardaşım Tələt Ali iqtisad təhsili almış və Xəzər dəniz gəmiçiliyinin siyasi şöbəsində rəis işləyir. Qardaşım Xəlil Azərb SSR Daxili İşlər Nazirliyində işləyir, kiçik qardaşım Kamil isə şagirddir.

Qohumlarımdan heç kim seçki hüququndan məhrum deyil, repressiya olunmamış və sovet hakimiyyət orqanları tərəfindən həbs edilməmişdir, eləcə də xaricdə qohumum yoxdur.

Orta məktəbi 1932-ci ildə bitirmişəm, məktəbdə ictimai işlərdə çalışmışam və idmanla məşğul olmuşam.

Məktəbi bitirəndən sonra Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna daxil olmuşam və 1936-cı ildə oranı bitirmişəm. İnstitutda 1932-ci ildə ÜLKGİ-a daxil olmuşam. 1934-cü ildə institutun nəzdində Bakı aeroklubunun filialı "İlk tələbə aeroklubu" açıldıqda orada oxumağa başlamışam və 1935-ci ildə onu müvvəffəqiyyətlə bitirmişəm. Sənaye İnstitutunda son təhsil illərində aeroklubda təyyarəçi instruktor işləmişəm. Azərbaycan qızlarından ilk, 1935-ci ildə hündürlükdən paraşütlə tullanıb, 1935-ci ilin avqustunda Moskvada paraşütçülərin ümumittifaq uçuşunda iştirak etmişəm. Tuşin aerodromunda hündürlükdən tullanma yarışında bizim Zaqafqaziya komandası birinci yerə çıxıb və ÜLKGİ MK-nın Fəxri Fərmanı ilə təltif olunmuşuq. Bütünlükdə mən 50 tullanma keçirmişəm və paraşüt idmanı instruktoru rütbəsi almışam. Moskva uçuşundan qayıdandan sonra Bakı aeroklubunda instruktor işləmişəm, eyni zamanda





institutda təhsilimi bitirmişəm.

1936-cı ildə Azərbaycanda sovet hakimiyyəti qurulması şərəfinə Azərbaycan nümayəndə heyətinin tərkibində Kremldə şəxsən Stalinin yanında olmuşam, hökumətin və partiyanın rəhbərliyi altında keçirilən yığıncaqda "Şərəf nişanı" ordeni almışam. Nümayəndələrin kiçiyi kimi yoldaş Molotov mənə qızıl saat təqdim etmişdir.

1936-cı il mənim institutu bitirdiyim ildir, mühəndis-nefçi ixtisası almışam.

1936-cı ilə qədər Bakı aeroklubunda komandir rütbəsində işləmişəm. 1938-ci ildə isə Moskvaya gedib Jukovski adına Hərbi Hava Akademiyasının şturman fakültəsinə daxil olmuşam. 1939-cu ildə mənə böyük etimad göstəriblər, mən Moskva şəhər zəhmətkeş deputatları sovetinə deputat seçilmişəm.

1940-cı ilin mayında partiyaya namizəd, 1941-ci ilin iyulunda üzv olmuşam.

Müharibə dövründə1941-ci ildən 1945-ci ilə kimi Böyük Vətən Müharibəsi cəbhəsində qırıcı təyyarəçi kimi iştirak etmişəm. Mənim axırıncı vəzifəm qırıcı hava polkunun komandir müavini və rütbən aviasiya komandiri olub. Almaniya üzərində qələbədən sonra 1945-ci ilin dekabrında tərxis olunmuşam.

1946-cı ilin yanvarında Bakı şəhər partiya komitəsində instruktor işləmişəm. Sentyabrda Azərbaycan ÜLKGİ-nın Mərkəzi Komitəsinin katibi seçilmişəm. 1951-ci ilin fevralına qədər orada işləmişəm.

1952-ci ilin fevralından noyabra kimi Azərbaycan KP. MK aparatında rəhbər işçi olmuşam.

1947-ci ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişəm və Respublika Ali Soveti İdarə Heyətinə üzv seçilmişəm.

1948-ci il 19 fevral–5 mart Sovet gəncləri nümayəndə heyəti tərkibində Hindistanda Dehlidə, Kərküttədə, Pişəvərdə və s. Şimal–Şərqi Asiya gənclərinin konfransında iştirak etmişəm.

1949-cu ildə 16 sentyabr - 4 oktyabr ÜLKGİ MK qərarı ilə Demokratik Rumıniya Pioner Təşkilatına kömək üçün Rumıniyada olmuşam.

Azərbaycan Ali Soveti İdarə Heyətinin göstərişi ilə 1952-ci ilin 6 noyabrında Az. SSR sosial–təminat naziri təyin olunmuşam.

Aşağıdakı hökumət təltiflərim var:

1. "Böyük Vətən Müharibəsi" ordeni, II dərəcə, (1945)
2. "Şərəf nişanı" ordeni (1936)
3. "Şərəf nişanı" ordeni, ÜLKGİ-nın 30 illiyində (1948)
4."Almaniya üzərində qələbə" medalı (1945)

*Z.H.Seyidməmmədova*

*Bakı şəhəri, 18 yanvar, 1954-cü il"*

Z.Seyidməmmədova 1975-ci ildən ömrünün sonuna kimi Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin Rəyasət Heyətinin sədr müavini olmuşdur. "Təyyarəçinin qeydləri" adlı kitabın müəllifidir..."

Züleyxa Seyidməmmədova haqqında danışmaq üçün məclisə müraciət etdikdə Hacı İntiqam dedi: "Elə mən özüm deyərəm də. Seyidməmmədova Züleyxa olub bizim qonşumuz. 41-ci ildə samolyot sürəndə Stalin soruşub ki, bu samolyotun yiyəsi kimdir? Deyiblər ki, Züleyxa Seyidməmmədova. Çağırtdırıb onu yanına, deyib ki, nə istəyirsən? Deyib ki, 37-ci ildə atamı tutublar, vraqnarod eləyiblər, xahiş eləyirəm ki, atamın, bu ad götürülsün üzərindən. Götürüblər!... İkinci dəfə gənə də,–bu kitabda yazılıb, kitabdan oxumuşam bunu,–qalxıb şücaət göstərib, Stalin soruşub, deyiblər ki, gənə də Züleyxa Seyidməmmədovadır. Gənə çağıtdırıb yanına onu,–kitabda mən belə oxumuşam,–gənə deyib ona ki, nə istəyirsən? Deyib, Şüvəlanda atamın bağı var, 37-də tutulanda bağın da alıblar. Xahiş eləyirəm ki, o bağı qeytərəsüz. O bağı da Stalin ona qeytərib. Şüvəlanda Sabir küçəsindədir. Onun atası Mirhəbib,





Xəlil də qardaşı olubdur, Seyidməmmədov Xəlil. Bir bacısı da onun raykom olub o vaxt. Xəlil də olub oboxeyislərin böyügi. Hamı ali savadlı olublar. İndi, özü də... həyatdu də, belənçik. Allah ona rəhmət eləsin, çöregindən yemişük. Allah sizə də ömür versün. Çox sağ olun".

* * *

Alqışlardan sonra məclisi yekunlaşdırmaq üçün sözü Hacı Soltana vermək istəyirdim ki, dünyadan köçənlərin ruhunu bir fatihə ilə şad eləyək. Hacı Soltan deyir: "Bismillahir-rəhmanir-rəhim! Bir dənə söz istəyirəm fatihədən qabaq nəzərinizə çatdırım... Peyğəmbər (s)-ın bir kəlamı var. Buyurur, insançün dünyada dörd xüsusiyyət böyük xoşbəxtlikdir. Birincisi odur ki, "bədənən-saula"–onun qüvvətli bədəni, səbirli, dözümlü cismi, ruhu olsun. İkincisi "lisanən-zikra"–onun dili zikrli olsun. Yaxşı sözlərdir hamısı. Düzdür, bu məclisdə haşiyələr çıxıldı, bunlar məncə lazım deyil və insan öz diliynən, həmişə zikrnən məşğul olsun və duaynan məşğul olsun. Üçüncü xüsusiyyət, xoşbəxtlik xüsusiyyəti budur ki, buyurur "bəndən-şakira"–qəlbin, ürəyin şükürü. Şükür iki cürdür: bir dildədir, bir ürəkdə. Əlhəmdülillah, kim rəbbil-aləminə təşəkkür eləməyi o dilnəndir, onun səvabı hələ bir dənədir. Amma ürəkdə şükür, Hacı İntiqamın şükrüdür. Bu onun qəlbən şükrüdür, əməli, əbədi şükrüdür. Yəni, xoşbəxt o insandır ki, bu xüsusiyyətlərin hamısı onda var. Hacı İntiqam deyir ki, mənim savadım yoxdur. Amma kitabdan yaxşı sözlər dedi o təyyarəçi haqqında, biz bunu eşitdik. Bizə lazımdır bu söz ki, Azərbaycan qadınlarından söhbət düşəndə, belənçignə kəlmələr yadda qalır və biz də misal çəkə bilək ki, təyyarəçi nə gözəl şücaət göstərib ki, yəni ki, ona belə qiymət verə bilirik. Qəlbin şükürlüyü budur. Dördüncüsü buyurur ki, "zövcətən-saləhə"–yaxşı qadın, yaxşı həyat yoldaşı olan... Hamınız fironun adını eşitmisiz, mən nə ərəbcə söz danışıram, nə farsca. Firon haqqında kinolar

da var... Quranda da əhvalat var, firon özünü Allah təyin eləmiş, deyir ki, mən Allaham. Allaha şirkdə böyük günah eləmiş, minlərlə insanı özünə tabe eləmiş. Ona Allah deyirdilər. Amma həyat yoldaşı, tanıyanlar bilirlər ki, onun həyat yoldaşı Asiya olub, onu Amerikada filmə də çəkiblər, onun həyat yoldaşı Asiya öz sahibinə, yəni firona ki, onun əridir, tabe deyildi ona, qəbul eləmirdi onu. O öz təmiz əqidəsində qalmışdı. Firon deyir ki, mən Allaham. Firon minlərlə insanı özünə tabe edib, onun həyat yoldaşı firona tabe deyil. Neyçün? Firon qafil oldu. Ona görə də həyat yoldaşı Allaha, - Quranda ayə var,- Allaha deyir: – Ey Allah, məni firondan ayırginən, öz behiştivə daxil eləginən. Deməli, dində də qadının əqidə azadlığı var. Məcbur eləmək olmaz qadını başqa yola. Onun özünün əqidə azadlığı var. Sahibinə tabe deyil əqidə azadlığında. Yəni ki, dində zor yoxdur, məcburiyyət yoxdur. Könüllü olmalıdır və peyğəmbər (s) buyurmuşdur ki, dördüncü xüsuysiyyət "zövcətən-salehə"dir, yaxşı qadın, saleh, əməlisaleh qadın bir kişiyə qismət olsun. İndi görürəm ki, doğrudan da burada həm dünyadan gedənlər hamısı yaxşı qadınlardır, həm də iştirak eləyənlər. Gözəl insanlar burada iştirak eləyirlər. Alim, şücaətli, akademik... Bu xüsusiyyətlərin dördünü də cəm gördüm. Və çox sağ olun ki, söz çoxdur, mən onu demək istəyirəm ki, çox sağ olun ki, qadını belə qiymətləndirirsiniz. Qabaqda Novruz bayramı gəlir, həm də ki, Məkkə ziyarəti. Bayaq burda sual oldu ki, ayın 12-də həcc ziyarətinə yola düşürlər, Kəbənin ziyarətinə. Minlərlə, milyonlarla insan Məkkənin ziyarətində olur və Məkkənin, indi savadlı adamlar bilir, burada hamı ziyalıdır, savadlı adamlar iştirak edirlər, o Məkkənin ziyarərtində qadın nişanələri vardır, ana nişanəsi vardır. Səfanan Mərvənin arasında İsmayılın anası Hacər su axtarır uşaqçün səhrada. Həzrət İbrahim peyğəmbər Hacərnən uşağı İsmayılı, mən bu əhvalatı danışmıram, bir məqamı istəyirəm burda qeyd eləyim. Hacərnən–anasıynan İsmaili qoyur səhranın düzündə. İns-cins olmur or-





da, yəni, Məkkənin gələcək yeri olur, orda qoyur, özü qayıdır. O qayıdanda, onun həyat yoldaşı Hacər soruşur ondan ki, sən bizi bu səhrada qoydun, quldur da ola bilər. Vəhşi də ola bilər, hər bir şey ola bilər. Özün gedirsən, bizi kimə tapşırırsan? Hacər soruşanda İbrahim deyir ki, mən sizi Allaha tapşırıram....

Allah Nizami Gəncəvini qəni-qəni rəhmət eləsin. Hacı İntiqama cansağlığı versin ki, keçən il o Nizami Gəncəvinin də burada yubileyini keçirtdi. Onun bir şeiri var, deyir:

Sən bir Allah ilə ol, aləmi sel bassa da, bil
Bir tükün də elə zənn etmə rütubətdə olar.

Elə bil ki, Nizami həmin hadisəyə görə bu beyti deyib. O deyir ki, indi sən Allaha dedin, Allah kifayət eləyər mənə.... İbrahim getdi, amma Hacər uşaqla qaldı. Baxdı, gördü uşaq ağlayır, susuzdur. Baxdı, səhradır, burda su olmur. Gördü dağın üstündən işıq gəlir, dedi yəqin sudur. Gəldi dağa yaxınlaşdı, gördü yox, su deyil. Amma baxdı oyan-bu yana gördü o biri dağın üstündədir işıq. Hələ bildi sudur, şəlalə axır. Səfanan Mərvə iki dağdır. Qaçdı suçün. Deməli, ana yeddi dəfə suçün qaçır ki, bu dağda su olar, o dağda su olar. Məkkə ziyarətində, o adamlar bilirlər, indi milyonlarla insanlar Məkkəyə gedirlər, yeddi dəfə qaçırlar o dağların arasında. Nə deməkdir bu? Bu ananın qayğıkeşliyidir. Milyonlarla kişilər, qadınlar da gedir, qadın ya kişi fərqi yoxdur, milyonlarla insanlar o ananın qayğıkeşliyini təkrar eləyirlər. Su üçün qaçırlar, yəni bu özü nədir? Bu özü böyük bir qələbədir...

Sara gəldi gördü ki, su tapmadı da, Allah bu uşağa möcüzə verdi. Uşaq ağlayır, ayaqların yerə döyürdü İsmayıl. Su fəvvarə verir ayağının altından uşağın. Su elə su, çeşmə qaynayır, qaynayır, böyüyür, dayanmır. O gəldi gördü ki, belənçignə qaynaya-qaynaya bütün dünyanı su basar. O vaxt Hacər dedi suya, bunlar ibrani dilində danışırdılar. Dedi: "Zəm-zəm" bizim dilimizdə "sakit ol". Bütün dünya bu suyun həsrətindədir. Bir az

içcən, şəfa taparsan. Yəni, bu söz də Hacərin dilindən çıxdığına görə, Zəmzəm quyusu var indi Məkkədə, dünya indi ondan təbərrük götürür, o da ananın suya verdiyi ad oldu: "Zəmzəm". Ananın iki dağ arasında, ona görə Allah-təala ilhamat elədi həzrət İbrahim peyğəmbərə ki, o ananı İsmayılla birlikdə dünyadan gedəndə Məkkənin evində dəfn elədilər...

Özü də elə sudur ki, Zəmzəm, illərlə qalır, xarab olmur. Həmin Kəbənin, hərəmin içində deyrlər ana ilə balanı dəfn elədilər. İndi sual verə bilərsiz ki, dinimizdə də belə şey yoxdur ki, məsciddə heç kim dəfn edilməz, olmaz. İnsanlarçün bu əfsanə olar. Amma nədən Hacəri hərəmdə dəfn ediblər. Bu da ananın əzəmətini bildirir. Allah-təala burda da bayaq deyildi, gözəl söz işlədildi ki, Hacı İntiqamın da bizim məclisimizdə iştirak eləyir, ağbirçək anası. Bizim həmişə məclisimizdə iştirak eləyir, Allah onun canını sağ eləsin. (alqışlar) Dünyadan gedən mərhumələr, burda əyləşən o onların ruhları, bilirsiz allah-təala həmişə bir duanı, bir arzunu, nəyi isə qəbul eləyirsə, təkliyi sevmir. Hətta çörək yeyəndə, bir adam təam yeyəndə, tək təam yemək qadağandır. Gərək mütləq bir nəfər, iki nəfər, süfrədə tək oturmaq caiz deyil, həmsüfrən olsun, gərək yanında bir nəfər olsun. Deməli, dua da, məsələn, bir adam özünü dua etsə, özü üçün Allahdan nəsə istəsə, o bir az gec qəbul olar. Amma bütün hamısını dua eləyəndən sonra, axırda özünü dua eləsə, bütün hamını dua eləyir deyə, onların içində olan əməlisaleh adamların xatirinə onun öz duasını da Allah qəbul eləyər. Ona görə də dünyadan gedən alimlərlə bir yerdə, biz ki, burda əyləşmişik. Burda iştirak eləyirik, bizim də dünyadan gedənlərimizin, babalarımızın nənələrimizin, cəmən deyirəm, hamısının ruhlarına bir dua oxuyaq". Hacı Soltan fatihə verir və hamı fatihə oxuyur və rəhmət diləyir...

Hacı İntiqam da dünyadan köçənlərə rəhmət deyir, qalanlara Allahdan ömür diləyir və Bilgəh kəndindən olan Həsənağa dayıdan eşitdiyi bir hədisi nəql edir: "Məhəmməd peyğəmbər





(s) yolnan gedirmiş. Bərk susayır. Görür ki, bir cavan qız gəlir. Çiynində səhəng. Deyir ki, nə yaxşı oldu, ay Allah, Sənə çox şükür ki, suzam, bu indi mənə su verər, içərəm. Deyir, qızım, xahiş eləyirəm, su verginən, yanıram suzundan. Qız bilmir ki, bu peyğəmbərdir, deyir ki, əmi, su verə bilmərəm sənə, səhəngdən su içərsən, murdar eləyərsən, sonra da mən gərək dala qayıdam nə qədər yolu, təzədən su götürəm. Bəs daldan gələn qızdan istərsən verər. Bundan 5-6 addım arxada da o biri qız gəlir. Aralananda peyğəmbər(s) deyir ki, ay Allah, Sənə qurban olum, bu cavan qızçün bir halalsüd əmmiş, qabiliyyətli, qanacaqlı, mərifətli bir oğlan, həyat yoldaşı yetirginən. Arxadan gələn qız bunu eşidir, deyir, ay Allah, nə olardı, məndən su istəyəydi, mən ona su verərdim. O qız su vermədi, amma onu gör necə dua elədi. Çatanda peyğəmçbər(s) deyir ona ki, o qız mənə su vermədi, barı sən verginən. Qız deyir, dayı, sən nə danışırsan, qurbandı, nə qədər su istəyirsən iç, gedib yenə də gətirərəm. Səhəngi başının üstündən yuxarı qaldırıb verir ki, peyğəmbər su içsin. Peyğəmbər suyu içir, sonra "çox sağ ol" deyir. Qız qulaq asır ki, görsün bunun dalınca nə deyəcək. Peyğəmbər əllərini yuxarı qaldırıb deyir ki, ay Allah, Sənə qurban olum, bu qızçün bir dənə ruzisiz, bərəkətsiz, qanacaqsız,mərifətsiz bir həyat yoldaşı yetirginən. Qız geri dönüb deyir ki, ay dayı, o qız sənə su vermədi, sən gör onu necə dua elədin. Mən sənə su verdim, amma gör məni necə dua eləyirsən. Deyir, qızım, onunçün hələnçignə yaxşı həyat yoldaşı arzu elədim ki, onu yola versin. Sən o qədər ruzili, bərəkətli, qəşəng, qabiliyyətli, qanacaqlı qızsan ki, səninçün elə oğlan arzuladım ki, sən onu yola verəsən....

Mən indi, hələ başa düşürəm ki, bu məclisdə burda oturan qadınlar ki, var, öz həyat yoldaşlarını hamısı yola verənlərdir. Buradakı kişilər də həyat yoldaşlarını yola verənlərdir ki, buradadırlar. Qadınlar gedəcək indi evə, yoldaşıdır, ikisi də yaxşı düşüb bir yerə, əgər nigaran qalsaydı yoldaşından,

burada oturmazdı bu vaxta kimi və ya kişilərin qadınları bunlasın haqqında pis fikirləşsəydilər, gəlməzdilər. Deməli, bunlar öz yoldaşlarını yola verir, yoldaşları da bunları. Siz də həmçinin, qadınlar, Allah sizə ömür versin, cansağlığı versin, necə insansız ki, burada oturmusunuz, elə bilirsiz ki, öz evinizdə oturmusunuz. Heç nigaran qalmırsınız evdən, yoldaşıvızdan. Qadınların da yoldaşı var, kişilərin də yoldaşı var. Bilirlər ki, onların yoldaşları necədir, nigaran qalmırlar. Çox sağ olun, minnətdaram sizə!..."

* * *

***P.S.*** Məclisdə bir neçə çıxış qarışıqlıq olduğundan ixtisar edilmişdir. Qalan çıxışlar olduğu kimi verilmişdir. Bəzən çıxışlarda, xüsusən də Hacı İntiqamın çıxışında dil, ləhcə olduğu kimi saxlanılmış, bəzən ədəbi dilə uyğunlaşdırılmışdır. Bu həmin adamların dilinin şirinliyini vermək xatirinə edilmişdir. Məclisdə oxunan şeirlər ixtisar edilmiş, şairlərin çoxusunun ancaq bir şeiri verilmişdir. Məclisin sonunda üzürlü səbəbə görə Hacı İntiqamın çıxışının bir hissəsi verilmişdir...

*MAY, 1999*





## MÜNDƏRİCAT


XATİRƏYƏ DÖNƏN ANLAR .......... 3

ÜNVAN – ŞÜVƏLAN .......... 9

"AZƏRBAYCANIN DÜNYA ŞÖHRƏTLİ QADINLARI" .......... 17

*ZƏRİFƏ ƏLİYEVA* .......... 17

*ZƏHRA QULİYEVA* .......... 24

*UMNİSƏ MUSABƏYOVA* .......... 27

*ADİLƏ NAMAZOVA* .......... 29

*PÜSTƏXANIM ƏZİZBƏYOVA* .......... 34

*MƏŞƏDİXANIM NEMƏT* .......... 37

*ZÜMRÜD QULUZADƏ* .......... 41

*MƏSUMƏ MƏLİKOVA* .......... 42

*ZƏRİVƏ BUDAQOVA və NƏZAKƏT AĞAZADƏ* .......... 48

*NƏCİBƏ MƏLİKOVA və AMALYA PƏNAHOVA* .......... 52

*NAİBƏ MUSAYEVA* .......... 61

*MİNİRƏ AĞAHÜSEYNOVA* .......... 61

*ZÜLEYXA SEYİDMƏMMƏDOVA* .......... 76

**S O N A X Ə Y A L**

# H A L A L Ş Ö H R Ə T

***Hacı İntiqamın evində keçirilən "Azərbaycanın dünya şöhrətli qadınları" adlı məclisdən***


Naşir: *Rafiq Xan-Sayad oğlu*
Korrektor: *Şahin Kamil*
Texniki redaktor: *Ülvi Novruzov*
Dizaynerlər: *İradə Əhmədova, Ceyhun Əliyev*
Operator: *Rübabə Vəliyev*

---

Yığılmağa verilib: 25.03.2011
Çapa imzalanıb: 07.04.2011
Ş.ç.v. 5, tiraj 300
«MBM» mətbəəsində çap olunub.